
YENİ AZƏRBAYCAN

13 noyabr 2026-cı il, cümə
№ 207 (7274)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.



Milli azadlıqdan
şirin nemət yoxdur!

Antalyadan verilən cavab!



Bax səh. 3

Prezident Dublində...



Bax səh. 2

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞI ARASINDA STRATEJİ TƏRƏFDAŞLIQ HAQQINDA BİRGƏ BƏYANNAMƏ

Bax səh. 2

Azərbaycan beynəlxalq aləmin aparıcı aktoru kimi...

Bax səh. 3

Göy məscidin təhqir olunması yolverilməzdir!

Bax səh. 5

“Güclü dövlət, sağlam cəmiyyət: milli dəyərlər və sosial ədalət”

Bax səh. 4

İtkin düşmüş şəxslərin taleyi BMT-nin gündəmində...

Bax səh. 4

Ötən 10 ayda...

Bax səh. 5

3,6 milyard dollar...

Bax səh. 5

KTMT-dən İrəvana sərt təpki



Bax səh. 6



Dünya üçün qarşıdakı onilliyin əsas çağırışı: İqlim ədaləti!

Bax səh. 6







Prezident Dublində...

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrlandiyanın paytaxtı Dublində "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısının açılış plenar sessiyasında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev sessiyada iştirak etmək üçün Dublindəki Konqres Mərkəzinə gəlib.

İrlandiyanın Baş naziri Mixol Martin dövlətimizin başçısını qarşılayıb.

Azərbaycan Prezidenti Zirvə Toplantısının açılış plenar sessiyasında iştirak edib.

Sonda toplantı iştirakçıları birgə foto çəkdiriblər.

X X X

"Avropa - güclü, təhlükəsiz və əlaqəli" mövzusuna həsr olunan budəfəki Zirvə Toplantısının gündəliyində rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, innovasiyaların təşviqi, nəqliyyat bağlantılarının inkişafı, əlçatan enerji, həmçinin Avropanın təhlükəsizliyi və müdafiəsi məsələləri yer alıb. Builki Toplantıda 50-yə yaxın dövlət və hökumət başçısı iştirak edib.









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Dublində "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində keçirilmiş "Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji" ("Building a competitive Europe - innovation, connectivity and affordable energy") mövzusunda dəyirmi masada iştirak edib.



İlham Əliyev Ukrayna Prezidenti ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İrlandiyanın Baş naziri Mixol Martinin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısında iştirak etmək üçün İrlandiyada səfərdədir.

AZƏRTAC xəbər verir ki, noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dublində Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb.

Ukrayna Prezidenti dövlətimizin başçısını Zəfər Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə təbrik etdi.

Görüşdə Prezident Volodimir Zelenskinin Azərbaycana səfəri və səfər zamanı aparılmış müzakirələr məmnunluqla xatırlandı.

Ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin, eyni zamanda, özəl sektorun xətti ilə iqtisadi əlaqələrin inkişaf perspektivləri müzakirə olundu, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri məsələsi barədə fikir mübadiləsi aparıldı.

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımlara, xüsusilə elektrik avadanlıqlarının təchizatı məsələsində dəstəyə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda postmünaqişə şəraitində apardığı bərpa və quruculuq işlərinin Ukrayna tərəfindən də böyük maraqla izlənildiyi qeyd olundu, bu xüsusda ölkəmizin təcrübəsinin Ukrayna üçün də əhəmiyyətli olacağı bildirildi.

Görüşdə Azərbaycan və Ukrayna prezidentləri qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi apardılar.

Azərbaycan və Moldova Prezidentlərinin görüşü...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Dublində "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Maya Sandu ilə görüşləri, həmçinin yüksəksəviyyəli qarşılıqlı səfərlər məmnunluqla xatırlandı.

Prezident Maya Sandu Moldovanın Azərbaycanla enerji sahəsində əməkdaşlığına toxundu və bunu inkişaf etdirməkdə maraqlı olduqlarını bildirdi.

Moldova Prezidenti ölkəsinin enerji təhlükəsizliyinə göstərilən dəstəyə görə təşəkkürünü ifadə etdi.

Azərbaycan və Moldova prezidentləri münasibətlərimizin perspektivlərinə, iqtisadi-ticari əlaqələrin genişləndirilməsinə, həmçinin kənd təsərrüfatı sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi apardılar.

Bolqarıstanın Baş naziri ilə görüşdə...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində Bolqarıstan Respublikasının Baş naziri Rumen Radev ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bir neçə gün əvvəl Bolqarıstanda baş vermiş ağır yol-nəqliyyat hadisəsi nəticəsində insanların həlak olması ilə bağlı Baş nazir Rumen Radevə bir daha başsağlığı verdi.

Bolqarıstanın Baş naziri başsağlığına və ifadə olunmuş həmrəyliyə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Azərbaycanla Bolqarıstan arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu vurğulandı, dostluq və strateji tərəfdaşlıq xarakteri daşıyan ikitərəfli münasibətlərimizin inkişafından məmnunluq ifadə edildi.

Görüşdə enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edilərək, bu istiqamətdə tərəfdaşlığı möhkəmləndirmək üçün yaxşı perspektivlərin olduğu vurğulandı, ölkələrimiz arasında elektrik enerjisi dəhlizi layihəsinin yaradılması, həmçinin bağlantılarla bağlı fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti və Bolqarıstanın Baş naziri müxtəlif sahələrdə əlaqələrimizin inkişafı ilə bağlı məsələləri müzakirə etdilər.

Azərbaycan Prezidentinin Ermənistanın Baş naziri ilə görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də İrlandiyanın Dublin şəhərində keçirilən "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, liderlər 2025-ci il avqustun 8-də keçirilmiş Vaşinqton Sülh Sammitinin nəticələrinə və həmin tədbirdə imzalanmış Vaşinqton Birgə Bəyannaməsinə əsaslanaraq, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə iki ölkə arasında sülhün daha da möhkəmləndirilməsinə yönəlmiş praktiki addımlara, o cümlədən nəqliyyat və tranzit əlaqələrinin inkişafına, iqtisadi-ticari münasibətlərə, sərhədlərin delimitasiyasına və etimad quruculuğu tədbirlərinin həyata keçirilməsinə dair müzakirələr aparılıb.

Liderlər bu kontekstdə Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) inkişafı istiqamətində əldə olunmuş irəliləyişləri, o cümlədən onun dəmir yolu və avtomobil yolu komponentlərinin planlaşdırılması və layihələndirilməsini, həmçinin TRIPP marşrutu boyunca tranzit əlaqələrinin perspektivlərini müzakirə ediblər.

Yüklərin Azərbaycan ərazisindən keçməklə Ermənistana və Ermənistandan tranziti müsbət hal kimi qeyd olunub. Ötən ilin noyabr ayından etibarən Azərbaycan ərazisindən Ermənistana ümumilikdə 105 min ton yük daşınıb.

Tərəflər, həmçinin Azərbaycan ilə Ermənistan arasında iqtisadi və ticari əlaqələrin daha da inkişaf etdirilməsi imkanları, o cümlədən gələcəkdə elektrik şəbəkələrinin birləşdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Liderlər ətraf mühit və transsərhəd su əməkdaşlığının əhəmiyyətini vurğulayıb, transsərhəd çayların idarə olunması üzrə işçi qrupların yaradılmasını alqışlayıblar.

Liderlər sülh prosesində müsbət dinamikanın qorunub saxlanılmasının, regionda sülhün, sabitliyin və rifahın möhkəmləndirilməsinə yönəlmiş dialoqun davam etdirilməsinin vacibliyini bir daha təsdiqləyiblər.

Dövlətimizin başçısı Yunanıstanın Baş naziri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 12-də Dublində Yunanıstan Respublikasının Baş naziri Kiriakos Miçotakis ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan-Yunanıstan ikitərəfli əlaqələri nəzərdən keçirildi.

Ölkəmizin Avropanın, o cümlədən Yunanıstanın enerji təhlükəsizliyində oynadığı rol və bu məsələyə verdiyi töhfə vurğulandı. Bu xüsusda TAP layihəsinin əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycanın Avropaya enerji, xüsusilə qaz ixracının artırılması üçün əlavə imkanların olduğu bildirildi, bu baxımdan Avropa İttifaqının maliyyə və prosedur mexanizmlərinə yenidən baxılmasının vacibliyi vurğulandı.

İlham Əliyevin Çexiyanın Baş naziri ilə görüşü...



Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dublində Çex Respublikasının Baş naziri Andrey Babişlə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Baş nazir Andrey Babiş bu ilin aprelində ölkəmizə rəsmi səfərini və Qəbələdə dövlətimizin başçısı ilə görüşünü məmnunluqla xatırladı. Həmin səfər çərçivəsində müzakirə olunmuş məsələlərin icrasında yaxşı nəticələrin əldə olunduğu vurğulandı.

Görüşdə iqtisadi-ticari əlaqələrin inkişafı, investisiya layihələrinin həyata keçirilməsi, iki ölkənin biznes nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili məsələləri müzakirə olundu.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı mühüm rola toxunularaq, ölkəmizin Çexiyanın ən iri neft təchizatçısı olduğu qeyd edildi.



AZƏRBAYCAN RESPUBLİKASI İLƏ BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞI ARASINDA STRATEJİ TƏRƏFDAŞLIQ HAQQINDA BİRGƏ BƏYANNAMƏ

Azərbaycan Respublikası və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı (bundan sonra "İştirakçılar" adlandırılacaq)

İki ölkə arasında uzunmüddətli münasibətlərə əsaslanaraq və 1994-cü il 23 fevral tarixli Dostluq və Əməkdaşlıq haqqında Birgə Bəyannaməni və 1998-ci il 21 iyul tarixli Dostluq Münasibətləri və Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni xatırlayaraq, ikitərəfli əlaqələrin gücünü, dərinliyini və dinamizmini qəbul edərək, qarşılıqlı hörmətə, ortaq maraqlara və praktik əməkdaşlığa əsaslanan münasibətləri Strateji Tərəfdaşlıq səviyyəsinə qaldırmaq üçün ortaq qətiyyətlərini ifadə edirlər.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, beynəlxalq hüququn prinsiplərinə və normalarına, xüsusən də beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, eləcə də suverenliyə, müstəqilliyə və ərazi bütövlüyünə hörmətlə bağlı prinsiplərə sadiqliklərini bir daha təsdiqləyərək.

2025-ci il 8 avqust tarixli Vaşinqton Sülh Zirvəsi Bəyannaməsinin əhəmiyyətini vurğulayaraq və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan sonrakı sülh addımlarını alqışlayaraq, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, ikitərəfli dialoq yolu ilə regionda davamlı sülhə nail olmaq məqsədi daşıyan iki ölkənin səylərinə davamlı dəstəyini bir daha təsdiqləyir.

Güclü, dayanıqlı və şaxələndirilmiş iqtisadi artımın, açıq ticarətin, investisiyaların və innovasiyanın hər iki İştirakçı üçün uzunmüddətli sabitlik və rifahın vacib təməlləri olduğunu qəbul edərək.

Hər iki tərəf davamlı tərəfdaşlıqların etimad, açıqlıq və güclü insanlararası əlaqələr üzərində qurulduğunu tanıyaraq, uzunmüddətli artım və rəqəmsal transformasiya üçün təməl kimi təhsil, elm, innovasiya və bacarıqlar sahəsində praktik əməkdaşlığın vacibliyini təsdiqləyir. İştirakçılar həmçinin icmalarla birbaşa əlaqənin qarşılıqlı faydasını tanıyır və bu Tərəfdaşlığın məqsədinə çatan layihə və proqramları dəstəkləməyi öhdələrinə götürürlər.

İştirakçılar aşağıdakı anlaşmaya gəldilər:

I. Müdafiə və Təhlükəsizlik

İştirakçılar regional sülh və sabitliyi dəstəkləmək üçün müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi, və ümumi təhdidləri yayındırmaq, qarşısını almaq və onlara cavab vermək qabiliyyətlərini artırmaq üçün uzunmüddətli öhdəlikləri ortaq qəbul edirlər.

Onlar yüksək səviyyəli qarşılıqlı fəaliyyətin davamlı impulsuna sadiq qalacaq və qarşılıqlı maraq doğuran ikitərəfli, regional və beynəlxalq məsələlər üzrə koordinasiyanı dərinləşdirəcəklər.

İştirakçılar təlim, potensialın artırılması və qarşılıqlı fəaliyyətə yönəlmiş müdafiə əməkdaşlığını inkişaf etdirəcək və qarşılıqlı maraq doğuran sahələrdə birgə təşəbbüslər də daxil olmaqla müdafiə sənayesi əməkdaşlığını gücləndirmək imkanlarını araşdıracaqlar.

Onlar artan təhlükəsizlik çağırışlarına və təhdidlərinə cavab olaraq geniş spektrli təhlükəsizlik prioritetləri üzrə əməkdaşlığı gücləndirəcəklər.

Bundan əlavə, İştirakçılar qanunun aliliyini və institusional dayanıqlılığı gücləndirmək üçün hüquq-mühafizə orqanları arasında gücləndirilmiş tərəfdaşlıq və sərhəd idarəçiliyi, eləcə də məhkəmə və hüquqi əməkdaşlığını formalaşdıracaqlar.

Onlar həmçinin maraqların uzlaşdığı çoxtərəfli platformalarda beynəlxalq sülhə və təhlükəsizliyə birgə töhfə verərək əməkdaşlıq etmək niyyətlərini təsdiqləyirlər.

II. Ticarət, İnvestisiya və Artım

İştirakçılar ikitərəfli ticarət və investisiya əlaqələrini genişləndirmək və dərinləşdirmək, eləcə də davamlı, inklüziv və şaxələndirilmiş iqtisadi artımı təşviq etmək ambisiyalarını ortaq qəbul edirlər.

Onlar bərpa olunan enerji, infrastruktur və xidmətlər də daxil olmaqla, prioritet sektorlar üzrə uzunmüddətli kommersiya tərəfdaşlıqlarını, bilik mübadiləsini və qarşılıqlı fəaliyyəti asanlaşdırmaqla, eləcə də hər iki iqtisadiyyatda iş yerləri, bacarıqlar və dəyər yaradan biznesləraası əlaqələri təşviq etməklə iqtisadiyyat, ticarət və investisiya sahələrində əməkdaşlığı gücləndirəcəklər.

İştirakçılar regional və beynəlxalq bağlantıların vacibliyini vurğulayır və sərhədyanı ticarət və investisiyaları asanlaşdıran nəqliyyat, logistika və infrastruktur layihələri ilə yanaşı, Orta Dəhlizin inkişafını da dəstəkləyəcəklər.

Onlar iqlim dəyişikliyinə davamlılığı, dayanıqlığı və sıfır hədəflərinə doğru irəliləyişi, eləcə də enerji təhlükəsizliyini dəstəkləmək məqsədilə bərpa olunan enerjinin inkişafı, yaşıl maliyyələşdirmə və aşağı karbonlu texnologiyalar da daxil olmaqla təmiz enerji keçidi üzrə əməkdaşlıq edəcəklər.

İştirakçılar, davamlı investisiya, ticarət maliyyəsi, KOB-ların artımı və yaşıl maliyyələşdirməni dəstəkləmək məqsədilə müvafiq orqanlar və maliyyə qurumları arasında dialoq vasitəsilə maliyyə və kapital bazarlarında əməkdaşlığı dərinləşdirmək imkanlarını araşdıracaqlar. Onlar, müvafiq qanunlarına və qaydalarına uyğun olaraq, maliyyə sektorunun dayanıqlığını, şəffaflığını və beynəlxalq bazarlara çıxışını gücləndirən bilik mübadiləsini və institusional əməkdaşlığı asanlaşdıracaqlar.

İştirakçılar iqtisadi, ticarət və investisiya əməkdaşlığını, həmçinin texniki dialoqu stimullaşdıran mexanizmi kimi Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın roluna xüsusi əhəmiyyət verirlər. Onlar bundan investisiya, iqtisadi şaxələndirmə, Orta Dəhlizin inkişafı və enerji əməkdaşlığı üzrə birgə təşəbbüsləri irəlilətmək üçün əsas platforma kimi istifadə edəcəklər.

III. Təhsil və İnnovasiya

İştirakçılar təhsilin, elmin, tədqiqatın və innovasiyanın uzunmüddətli rifahın, məhsuldarlığın və sosial dayanıqlığın vacib amilləri, eləcə də müasir, rəqabətə davamlı və inklüziv iqtisadiyyatların təməli olduğunu qəbul edirlər.

Onlar artan əmək bazarı və idarəetmə ehtiyaclarına cavab olaraq, ali təhsil, peşə təhsili və təlim, rəqəmsal və texniki bacarıqlar, eləcə də icraedici və dövlət sektorunda təlim də daxil olmaqla, təhsil və bacarıqların inkişafı sahəsində əməkdaşlığı dərinləşdirəcəklər.

İştirakçılar, bacarıqların inkişafı, şəffaflıq və inklüziv artıma diqqət yetirərək, süni intellekt, rəqəmsal idarəetmə və innovasiya mühiti üzrə təcrübə mübadiləsi vasitəsilə də rəqəmsallaşdırma, inkişafda olan texnologiyalar və həyat elmləri sahələrində əməkdaşlıq edən universitetlər, tədqiqat institutları və sənayeləri arasında tərəfdaşlıq da daxil olmaqla, tədqiqat, innovasiya və texnoloji əməkdaşlığı təşviq edəcəklər.

İştirakçılar iki vətəndaş cəmiyyəti arasında qarşılıqlı anlaşmanı, mədəni əlaqələri və uzunmüddətli əməkdaşlığı təşviq edən insanlararası mübadilələri və peşəkar şəbəkələri həvəsləndirəcəklər.

Yekun müddəalar

İştirakçılar bu Bəyannamənin üç istiqaməti üzrə irəliləyişi nəzərdən keçirmək, gələcək əməkdaşlıq üçün prioritetləri müəyyən etmək və gedişatın praktiki izlənilməsi üzrə razılığa gəlmək məqsədilə illik Strateji Tərəfdaşlıq görüşləri keçirmək barədə anlaşmaya gəldilər.

Bu Bəyannamə çərçivəsində əməkdaşlıq resursların mövcudluğuna tabe və İştirakçıların müvafiq qanun və qaydalarına uyğun olacaqdır.

Dublin şəhərində 2026-cı il 12 noyabr tarixində hər iki mətn bərabər autentik olmaqla Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə qəbul olunmuşdur.

İLHAM ƏLİYEV
Prezident
Azərbaycan Respublikası

ENDİ BÖRNHAM
Baş nazir
Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı


Antalyadan verilən cavab!

Azərbaycan ilə Türkiyənin arasına nifaq toxumu səpmək istəyənələrin arzusu gözündə qaldı

Prezident İlham Əliyevə göstərilən xüsusi hörmət və diqqət qardaşlığımızın möhkəmliyinin növbəti sübutuna çevrildi

Azərbaycan-Türkiyə münasibətlərinin, tarixən formalaşmış dostluq və qardaşlıq bağlarının siyasi iradə, qarşılıqlı etimad və sarsılmaz həmrəylik əsasında daha da möhkəmləndiyi növbəti dəfə nümayiş etdirildi. Türkiyə Prezidentinin Azərbaycana, Azərbaycan Prezidentinin isə Türkiyəyə səfərləri təkcə diplomatik təmasların intensivliyi ilə deyil, həm də daşıdığı mühüm siyasi mesajlar, nümayiş etdirilən qarşılıqlı hörmət və diqqət, verilən bəyanatların məzmunu ilə xüsusi əhəmiyyət kəsb etdi. Bu səfərlər bir daha təsdiqlədi ki, Azərbaycan və Türkiyə münasibətləri adi dövlətlərarası əməkdaşlıq çərçivəsinə sığmır. Bu, ortaq tarixdən, milli-mənəvi dəyərlərdən, sınaqlardan keçmiş həmrəylikdən və gələcəyə hesablanmış strateji baxışdan qaynaqlanan əbədi qardaşlıq münasibətləridir.

Hər zaman iki ölkənin birliyini zəiflətməyə, münasibətlərdə süni gərginlik yaratmağa, araya nifaq toxumu səpməyə çalışan qüvvələr olub. Lakin onların bütün cəhdləri dəfələrlə olduğu kimi, bu dəfə də iflasa uğradı. Çünki Azərbaycan-Türkiyə qardaşlığı hansısa siyasi konyunkturadan, ayrı-ayrı dairələrin maraqlarından və kənar təsirlərdən asılı deyil. Prezident İlham Əliyevin Türkiyədə xüsusi ehtiramla qarşılanması, ona göstərilən yüksək diqqət və səmimi münasibət isə bu qardaşlığın dövlət rəhbərləri səviyyəsində necə möhkəm təməllərə söykəndiyinin aydın ifadəsi idi. Səfərlər bir daha göstərdi ki, iki ölkənin birliyinə kölgə salmaq istəyənlərin arzuları gözlərində qalacaq. Azərbaycan və Türkiyə birlikdədir, bu birlik sarsılmazdır və onun qarşısında heç bir pozucu niyyətin uğur qazanmaq imkanı yoxdur







Prezident İlham Əliyevin yaratdığı reallıqlar...

Ümumiyyətlə, Azərbaycan dövlətinin həyata keçirdiyi çoxvektorlu xarici siyasət kursu ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə artmasında əsaslı şərt kimi çıxış edir. Əldə olunan yüksək iqtisadi göstəricilər, diplomatik uğurlar, Vətən müharibəsində qazanılan qələbənin ardından regionda formalaşdırılan yeni siyasi reallıqlar, Avropanın enerji təminatında oynadığı əhəmiyyətli rol, eləcə də qlobal ekosistemin qorunmasına verilən töhfələr yüksək marağa səbəb olub. Bu isə nəticədə ölkəmizə olan müsbət beynəlxalq münasibəti daha da möhkəmləndirir.

Müəyyənləşdirilən və həyata keçirilən xarici siyasət kursu özündə qlobal həmrəyliyi və beynəlxalq əməkdaşlığı birləşdirməklə yanaşı, yeni layihələrin formalaşdırılmasını və təbliğini də ortaya qoyur. Əldə olunan uğurlar isə saymaqla bitməz:

- Azərbaycan mühüm bir regionda təhlükəsizliyin əsas qarantı kimi çıxış edir;
- Ölkəmiz bütün dünya üçün şəffaf və əlverişli sərmayə mühiti yaradır;
- Şərq ilə Qərb arasında iqtisadi körpü rolunda çıxış edir;
- Avropanın enerji təminatında əsaslı yer tutur;
- Öz növbəsində Şərqin yeni enerji layihələrində fəal iştirakçı qismində çıxış edir;
- Dünyanın ən mühüm iqtisadi aortasına çevrilmək perspektivi daşıyan Çinin "bir kəmər bir yol" layihəsinin ən əsas dayanacaqlarından biri statusunu qazanıb. Azərbaycan bu gün yeni geosiyasi çağırışların ticarət, iqtisadi əlaqələrə yaratdığı risklərin aradan qaldırılmasında başlıca çıxış yollarından biri kimi nəzərdən keçirilən qlobal nəqliyyat şəbəkəsinin şaxələndirilməsində mühüm rol oynayır.
- Bakı beynəlxalq əhəmiyyətli məsələlərin müzakirəsinin daimi ünvanlarındandır.

Bu kimi faktlar isə Azərbaycanı diqqət mərkəzinə çıxarır. Təsadüfi deyil ki, bütün beynəlxalq statuslu tədbirlərdə Prezident İlham Əliyevin iştirakı xüsusi qeyd edilir. Azərbaycan ən mötəbər tədbirlərin daimi iştirakçısına çevrilib. Avropa kontentinin, Ərəb dövlətləri Liqasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Türk Dövlətləri Təşkilatının, Mərkəzi Asiya Birliyinin və digər beynəlxalq təsisatların rəhbərləri, aparıcı iqtisadiyyata malik olan böyük dövlətlərin rəsmi şəxsləri qlobal məsələlərin müzakirəsində Prezident İlham Əliyevin iştirakını vacib sarırlar. Təsadüfi deyil ki, ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevi bu ilin dekabrında Mayami şəhərində keçiriləcək G20 Sammitinə şəxsən dəvət edib.

COP29 standartı...

Noyabrın 11-də Türkiyənin Antalya şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) Liderlər Sammitində Prezident İlham Əliyevin iştirakı xüsusi diqqəti cəlb etdi - 2024-cü ildə ölkəmizdə baş tutan COP29-un bu çərçivədə yeni bir standart müəyyənləşdirməsi, Bakının qlobal problemlərə baxışı və onun həll yollarındakı səyləri qlobal dünya tərəifndən təqdirlə qarşılanır. COP29-un əhəmiyyəti bir sıra xüsusiyyətlərinə görə daha qabarıq şəkildə önə çıxır - platforma həm qlobal, həm regional, həm də daxili auditoriyaya mühüm mesajlar ünvanladı. Müzakirələr həm də qlobal məkan üçün əsaslı problemə çevrilən məsələlərin həll yollarının təklif edilməsi ilə yadda qaldı - beynəlxalq maliyyə qurumlarının, xüsusən Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun, inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün verdikləri maliyyə dəstəyi və texnoloji həllərin yayılması barədə ətraflı məlumat verildi. COP29 beynəlxalq auditoriya üçün yaşıl hədəflərin daha yüksək şəkildə təbliğinin təmin olunmasında əsaslı mənbə kimi çıxış etdi. Yaşıl hədəflərin qlobal səviyyədə təbliği iqlim dəyişikliyində daha çox məsuliyyət daşıyan ölkələr üçün əyani vəsaitə çevrildi. COP29 iqlim dəyişikliyinə qarşı qlobal mübarizənin təşkili ilə yanaşı həm də qlobal təbliğatın gücləndirilməsində mühüm amilə çevrildi. Beynəlxalq arenada maarifləndirmə kampaniyalarının necə həyata keçirilməsi barədə geniş müzakirələrə yer verildi. Təsadüfi deyildi ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında əvvəlki COP sədrliklərinin təcrübələrini bölüşdüklərinə görə Azərbaycana və Braziliyaya təşəkkürünü bildirdi. Beləliklə, Azərbaycan Prezidentinin qətiyyəti, dostluğa, qardaşlığa sədaqəti və qlobal mühitdə hörmətə laiyq dövlət başçısı kimi qarşılanması növbəti dəfə diqqət mərkəzinə düşdü.

Dönməz, sarsılmaz qardaşlıq...

"Azərbaycan-Türkiyə qardaşlığı əbədidir!" - Prezident İlham Əliyevin Şuşada səsləndirdiyi bu bəyanat iki dövlət və xalq arasındakı münasibətlərin mahiyyətini, strateji müttəfiqliyin sarsılmazlığını ifadə edən mühüm siyasi mesajdır. Bu fikir yalnız bugünkü münasibətlərin deyil, ortaq tarixə, milli-mənəvi dəyərlərə, qarşılıqlı etimada və səmimi qardaşlığa söykənən gələcək əməkdaşlığın da dəyişməz prinsipini ortaya qoyur. Azərbaycan və Türkiyə münasibətləri adi diplomatik tərəfdaşlıq çərçivəsini çoxdan geridə qoyaraq nümunəvi müttəfiqlik səviyyəsinə yüksəlib.

Bu gün iki ölkə arasında siyasi, iqtisadi, enerji, nəqliyyat, hərbi və humanitar sahələrdə əməkdaşlıq ardıcıl şəkildə genişlənir. Eyni zamanda, beynəlxalq platformalarda Azərbaycan və Türkiyənin nümayiş etdirdiyi həmrəylik qardaşlığımızın regional və qlobal miqyasda mühüm siyasi amilə çevrildiyini təsdiqləyir. İstər Türk Dövlətləri Təşkilatı çərçivəsində, istərsə də digər beynəlxalq təsisatlarda ölkələrimizin bir-birinin maraqlarını dəstəkləməsi bu birliyin praktik təzahürüdür.

Bu mənada Azərbaycan-Türkiyə yaxınlığından narahat olan, iki qardaş ölkənin arasına nifaq toxumu səpməyə çalışan qüvvələrə verilən ən tutarlı cavab məhz münasibətlərimizin dönməzliyi, qarşılıqlı hörmət və etimadın yüksək səviyyədə qorunmasıdır. Azərbaycan və Türkiyə heç bir kənar təsirin bu birliyə xələl gətirməsinə imkan verməyəcək. Çünki bu qardaşlıq siyasi konyunkturaya deyil, ortaq taleyə, tarixi bağlılığa və sarsılmaz milli iradəyə əsaslanır. Bir millət, iki dövlət fəlsəfəsi bu gün də öz siyasi və mənəvi gücünü qoruyur.

P.İSMAYILOV

Azərbaycan beynəlxalq aləmin aparıcı aktoru kimi...

Bakı qlobal müzakirələrdə mühüm iştirakçı qismində çıxış edir

Azərbaycanın xarici siyasət kursunda Avropa istiqaməti xüsusi yer tutur. Avropa dövlətləri ilə münasibətlərin qarşılıqlı etimad, siyasi dialoq və ortaq maraqlar əsasında inkişaf etdirilməsi ölkəmizin beynəlxalq əlaqələr sistemində prioritet istiqamətlərdən biridir. Son illərdə Azərbaycan-Avropa münasibətləri yalnız enerji əməkdaşlığı ilə məhdudlaşmır, siyasi, iqtisadi, təhlükəsizlik, nəqliyyat, logistika və humanitar sahələri də əhatə edən geniş məzmun qazanıb. Xüsusilə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın artan rolu ölkəmizin strateji əhəmiyyətini daha da yüksəldir. Bu gün Azərbaycan Avropanın etibarlı enerji tərəfdaşı olmaqla yanaşı, qitənin gələcəyinə, təhlükəsizliyinə və regional sabitliyinə dair müzakirələrdə mövqeyi nəzərə alınan mühüm siyasi aktordur.


Bu əməkdaşlığın inkişafında Avropa Siyasi Birliyi də mühüm platformalardan biri kimi çıxış edir. Təşkilatın fəaliyyəti Avropa İttifaqına üzv olan və olmayan ölkələri ümumi maraqlar ətrafında bir araya gətirərək qitənin qarşılaşdığı çağırışların müzakirəsinə, siyasi dialoqun dərinləşməsinə imkan yaradır. Azərbaycanın bu platformada fəal iştirakı isə ölkəmizin Avropa məkanında artan siyasi çəkisinin, beynəlxalq təşəbbüslərə açıq mövqeyinin və qlobal təhlükəsizlik məsələlərinə verdiyi töhfənin göstəricisidir. Prezident İlham Əliyevin müxtəlif beynəlxalq platformalarda nümayiş etdirdiyi prinsipial mövqe bir daha təsdiqləyir ki, Azərbaycan Avropanın gələcəyi ilə bağlı proseslərdə kənar müşahidəçi deyil, öz maraqları və təşəbbüsləri ilə çıxış edən etibarlı tərəfdaşdır.

Avropa Siyasi Birliinin əsas mahiyyəti...

Avropa Siyasi Birliyi 2022-ci ildə, Rusiya-Ukrayna müharibəsinin yaratdığı yeni geosiyasi reallıqlar fonunda, Avropa dövlətləri arasında siyasi dialoqu gücləndirmək, ortaq təhlükəsizlik çağırışlarına birgə yanaşmalar formalaşdırmaq məqsədilə yaradılıb. Birliyin ilk Zirvə toplantısı 6 oktyabr 2022-ci ildə Çexiyanın paytaxtı Praqada keçirilib. Bu platforma Avropa İttifaqını əvəz edən qurum deyil, Avropa qitəsinin bütün dövlətlərinin bərabərhüquqlu dialoqu üçün nəzərdə tutulan siyasi əməkdaşlıq formatıdır. İlk toplantıdan başlayaraq sülh və təhlükəsizlik, enerji təminatı, iqtisadi əməkdaşlıq, nəqliyyat-kommunikasiya əlaqələri və regional sabitlik əsas müzakirə mövzuları olub.

Azərbaycan Prezidentinin bu platformada iştirakı ölkəmizin Avropa ilə siyasi dialoqa verdiyi əhəmiyyətin ifadəsidir. Prezident İlham Əliyev Praqada keçirilən ilk toplantıdan etibarən müxtəlif Zirvə görüşlərində iştirak edib, Azərbaycanın regional və qlobal təhlükəsizlik məsələlərinə dair mövqeyini diqqətə çatdırıb. Moldova, İspaniya, Böyük Britaniya, Macarıstan, Albaniya və Danimarkada keçirilən görüşlər bu dialoqun davamlılığını göstərir. 2026-cı ilin mayında Ermənistanın paytaxtı İrəvanda keçirilən səkkizinci toplantıya isə dövlət başçısı videobağlantı vasitəsilə qatılaraq Azərbaycanın sülh gündəliyinə sadiqliyini, regional kommunikasiyaların açılmasının əhəmiyyətini və Avropa ilə əməkdaşlıq perspektivlərini diqqətə çatdırıb.

Burada diqqət çəkən əsas məqam Azərbaycanın müzakirələrdə yalnız öz milli maraqlarını deyil, bütövlükdə Avropa məkanının təhlükəsizliyi və sabitliyi baxımından əhəmiyyət daşıyan məsələləri gündəmə gətirməsidir. Enerji təhlükəsizliyinə verdiyi töhfə, Şərq-Qərb nəqliyyat dəhlizindəki strateji mövqeyi, Cənubi Qafqazda sülh və əməkdaşlıq təşəbbüsləri ölkəmizin əhəmiyyətini artırır.



Dublin Sammitindən gözləntilər...

Xəbər verildiyi kimi, noyabrın 12-də İrlandiyanın Dublin şəhərində Avropa Siyasi Birliyinin doqquzuncu Zirvə toplantısı baş tutub. Tədbirdən öncə bildirilib ki, toplantıda təxminən 50 ölkənin liderinin iştirakı nəzərdə tutulub və Sammitə Avropa Şurasının prezidenti Antonio Costa, eləcə də İrlandiyanın Baş naziri Maykl Martin tərəfindən həmsədrlik edilməsi planlaşdırılıb. Sammitin mövzusu "Güclü, Təhlükəsiz və Bir-biri ilə əlaqəli Avropa"dır. Tədbirə ümumilikdə, əhalisi 700 milyondan çox olan 47 ölkənin lideri, eləcə də Aİ institutlarının və digər Avropa və beynəlxalq təşkilatların nümayəndələri dəvət olunub. Kanadanın Baş naziri Mark Karni sammitdə xüsusi qonaq kimi iştirak edib.

Dublin Sammitinin əsas müzakirə istiqamətlərindən birinin rəqabətqabiliyyətli Avropanın qurulmalı olması təsadüfi deyil. Müasir dövrdə iqtisadi rəqabət qabiliyyəti texnoloji innovasiyalarla yanaşı, enerji resurslarının etibarlı təchizatından, nəqliyyat infrastrukturunun səmərəliliyindən və təchizat zəncirlərinin dayanıqlılığından da asılıdır. Son illərdə Avropa ölkələrinin Azərbaycana marağının artması, həmçinin Prezident İlham Əliyevin yüksək şəxsi nüfuzu, ölkəmizin beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmlənməsi, regional və qlobal məsələlərin həllində rolunun genişlənməsi ilə bağlıdır. Bu maraq dövlət və hökumət başçılarının, Avropa İttifaqının yüksəkvəzifəli nümayəndələrinin Azərbaycana səfərlərində, Prezident İlham Əliyevlə görüşlərində və yeni əməkdaşlıq təşəbbüslərində özünü göstərir.

Diqqətçəkən məqamlardan biri Prezident İlham Əliyevin beynəlxalq platformalarda keçirdiyi bir sıra ikitərəfli görüşlərin qarşı tərəfin müraciəti və sorğusu əsasında təşkil edilməsidir. Davosda, Münxendə və digər platformalarda keçirilən görüşlərin məhz bu qaydada baş tutması dövlətimizin başçısının şəxsi nüfuzunu, ölkəmizin artan gücünü və etibarlı dialoq tərəfdaşı kimi mühüm rolunu göstərən nümunələrdəndir.

2028-ci ildə Bakıda...


Azərbaycan üçün Dublin Sammitinin əhəmiyyəti təkcə tədbirin gündəliyi ilə məhdudlaşmır. Ölkəmiz Avropa Siyasi Birliyinin əvvəlki görüşlərində də fəal iştirak edib, platforma çərçivəsində regional təhlükəsizlik, enerji və bağlantılar məsələlərinə dair mövqeyini irəli sürüb. Qeyd edək ki, Birliyin 12-ci Sammiti 2028-ci ildə Azərbaycanda keçiriləcək. Avropa rəhbərliyinin Azərbaycanla dialoqu davam etdirməsi, dövlət başçısının Zirvə görüşlərinə dəvət olunması və ölkəmizin 2028-ci ildə Birliyin on ikinci Zirvə toplantısına ev sahibliyi etməsinin nəzərdə tutulması Bakının artan siyasi nüfuzuna verilən qiymətin göstəricisidir.

Avropanın enerji təhlükəsizliyində birbaşa iştirak...

Qeyd olunmalıdır ki, Avropanın enerji təhlükəsizliyinin təmin olunması son illərdə qitənin siyasi və iqtisadi gündəliyində prioritet istiqamətlərdən birinə çevrilib. Ənənəvi enerji təchizatı marşrutlarının şaxələndirilməsi, yeni mənbələrin cəlb edilməsi və etibarlı tərəfdaşlarla uzunmüddətli əməkdaşlığın qurulması bu strategiyanın əsas tərkib hissələridir. Belə bir şəraitdə Azərbaycanın Avropanın enerji xəritəsində tutduğu mövqe daha da möhkəmlənir. Ölkəmiz malik olduğu zəngin enerji resursları, müasir ixrac infrastrukturu və etibarlı tərəfdaşlıq prinsipləri ilə Avropanın enerji təhlükəsizliyinə real töhfə verir.

2022-ci ildə Prezident İlham Əliyev və Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu bu əməkdaşlığın yeni mərhələsini müəyyənləşdirdi. Sənəd qarşılıqlı maraqların konkret layihələr və uzunmüddətli öhdəliklər əsasında inkişaf etdirilməsinə imkan yaratdı. Cənub Qaz Dəhlizinin fəaliyyəti və genişlənən ixrac coğrafiyası Azərbaycanın bu istiqamətdəki rolunun praktik ifadəsidir. Hazırda 16 ölkəyə, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətinə qaz ixrac etməyimiz tərəfdaşlığın miqyasını aydın göstərir.

Bununla yanaşı, Azərbaycanın Avropa ilə enerji münasibətləri yalnız təbii qazla məhdudlaşmır. Xəzərin külək enerjisi imkanları, günəş enerjisi layihələri və Mərkəzi Asiyadan Avropaya uzanacaq yaşıl enerji bağlantıları yeni əməkdaşlıq perspektivləri açır. 2026-cı ilin martında Bakıda keçirilən məşvərət şuralarının nazirlər iclaslarında 27 tərəfdaş hökumətin, 60 beynəlxalq təşkilat və şirkətin təmsil olunması da ölkəmizin beynəlxalq enerji dialoqunda mövqeyini təsdiqləyir. Beləliklə, Azərbaycan Avropanın bugünkü enerji ehtiyaclarının ödənilməsində iştirak etməklə yanaşı, qitənin gələcək enerji arxitekturasının formalaşmasında da mühüm tərəfdaş kimi çıxış edir.



Orta Dəhliz - Şərqi Qərbə bağlayan əsas xətt...

Dünya iqtisadiyyatında baş verən dəyişikliklər beynəlxalq nəqliyyat sisteminə yeni yanaşmanı zəruri edir. Qlobal ticarətin davamlılığı, yüklərin təhlükəsiz və vaxtında çatdırılması, alternativ marşrutların yaradılması artıq dövlətlərin iqtisadi siyasətinin mühüm istiqamətlərindəndir. Bu baxımdan Azərbaycan əlverişli coğrafi mövqeyi və formalaşdırdığı nəqliyyat infrastrukturu ilə Avropa və Asiya arasında əlaqələrin inkişafında xüsusi üstünlüklərə malikdir. Orta Dəhlizin getdikcə daha çox diqqət mərkəzinə gəlməsi də məhz bu reallıqdan qaynaqlanır.

Çindən başlayaraq Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan və Cənubi Qafqaz üzərindən Türkiyəyə, oradan isə Avropaya uzanan marşrut beynəlxalq yükdaşımaların istiqamətlərini şaxələndirir. Bu xəttin əhəmiyyəti yalnız coğrafi məsafə ilə ölçülmür. O, müxtəlif iqtisadi məkanları birləşdirir, ölkələr arasında qarşılıqlı asılılığı artırır və yeni ticarət imkanları yaradır. Azərbaycanın Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, dəmir yollarına, avtomobil magistrallarına və digər nəqliyyat obyektlərinə yatırdığı investisiyalar bu marşrutun rəqabət qabiliyyətini gücləndirir.

Lakin Orta Dəhlizin potensialından maksimum istifadə etmək üçün infrastrukturun mövcudluğu ilə kifayətlənmək olmaz. Yükdaşımaların sürətinin artırılması, gömrük prosedurlarının sadələşdirilməsi, rəqəmsal sistemlərin tətbiqi və tarif siyasətinin uzlaşdırılması da vacib şərtlərdir. Azərbaycanın bu istiqamətdə regional tərəfdaşlarla apardığı əməkdaşlıq dəhlizin beynəlxalq əhəmiyyətini artırır. Eyni zamanda, Avropa İttifaqının "Global Gateway" təşəbbüsü çərçivəsində ölkəmizdə səfərbər edilən investisiyaların 130 milyon avronu keçməsi iqtisadi bağlantıların inkişafına göstərilən marağın konkret nümunəsidir. Deməli, Orta Dəhliz Azərbaycan üçün sadəcə tranzit marşrutu deyil, Avropa ilə Asiya arasında iqtisadi inteqrasiyanın dərinləşdirilməsinə xidmət edən strateji vasitədir.

Bakı sülhün, təhlükəsizliyin təminində fəal rol oynayır

Avropa qitəsinin üzləşdiyi təhlükəsizlik çağırışları regional sabitliyin və siyasi dialoqun əhəmiyyətini daha da artırıb. Müharibələr, geosiyasi qarşıdurmalar, kibertəhdidlər və kritik infrastrukturun təhlükəsizliyi dövlətləri ortaq fəaliyyət mexanizmləri axtarmağa sövq edir. "Avropa Siyasi Birliyi" çərçivəsində təhlükəsizlik məsələlərinin geniş müzakirə olunması da bu zərurətdən irəli gəlir. Azərbaycan üçün isə bu gündəlikdə Cənubi Qafqazda davamlı sülhün bərqərar olması xüsusi yer tutur.

Azərbaycanın xarici siyasətində regional sabitlik iqtisadi inkişaf, nəqliyyat bağlantıları və beynəlxalq əməkdaşlıqla bilavasitə əlaqələndirilir. Çünki qarşıdurma mühitinin aradan qaldırılması təkcə siyasi münasibətləri yaxşılaşdırmır, həm də regionun tranzit imkanlarını genişləndirir, investisiyalar üçün əlverişli şərait yaradır. Prezident İlham Əliyevin 2026-cı ilin mayında İrəvanda keçirilən Avropa Siyasi Birliyinin sammitinə videobağlantı vasitəsilə qatılaraq səsləndirdiyi fikirlər bu baxımdan diqqətəlayiqdir. Dövlət başçısı Azərbaycanın sammitlərdən birinə ev sahibliyi etmək təşəbbüsünün qəbul olunduğunu qeyd etməklə yanaşı, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətindəki prosesə də toxunub. Xatırladaq ki, hələ 2022-ci ilin oktyabrında ASB-nin ilk Praqa toplantısında Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımışdı. Məhz həmin Sammitdə baş tutan müvafiq görüşün Yekun Bəyanatında Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyü və suverenliyini tanıdı və bu xüsusda BMT Nizamnaməsi əsas sənəd kimi götürüldü.

P.İSMAYILOV

YAP Veteranlar Şurasının iclası keçirilib



Noyabrın 12-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının VIII Qurultaydan sonra ilk iclası keçirilib.

Əvvəlcə YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə iclas iştiraçılarını 12 Noyabr - Konstitusiya Günü münasibətilə təbrik edib.

Sonra iclasın gündəliyi və müzakirəyə çıxarılan məsələlər barədə məlumat verilib. YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə Şuranın ötən dövr ərzində fəaliyyətinin partiyanın Proqram və Nizamnaməsinə uyğun həyata keçirildiyini vurğulayıb.

Görülən işlərdən bəhs edən Arif Rəhimzadə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin partiyanın VIII Qurultayında səsləndirdiyi fikirlərə diqqət çəkərək ideoloji işin, o cümlədən gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin bundan sonra da diqqət mərkəzində olacağını deyib.

Şuranın sədr müavini Sədaqət Qəhrəmanova, üzvlərdən Misir Mərdanov, Tahir Rzayev, Əhliman Əmraslanov, Vahid Novruzov, Tahir Məmmədov, Urxan Ələkbərov, Allahverdi Hacıyev, Şahlar Əsgərov və Tahir Quliyev çıxış edərək müzakirə olunan məsələlərə münasibət bildiriblər. Yeni tarixi mərhələdə veteranların üzərinə mühüm vəzifələrin düşdüyü və ideoloji işin müasir çağırışlara uyğun təşkilində onların təcrübəsindən səmərəli istifadə edilməsinin əhəmiyyəti vurğulanıb.

İclasda 2027-ci ilin Tədbirlər Planı ilə bağlı müxtəlif təkliflər səsləndirilib və müvafiq qərarlar qəbul olunub.

"Güclü dövlət, sağlam cəmiyyət: milli dəyərlər və sosial ədalət"

Noyabrın 11-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının və YAP Qobustan rayon təşkilatının birgə təşkilatçılığı ilə "Güclü dövlət, sağlam cəmiyyət: milli dəyərlər və sosial ədalət" mövzusunda tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş nitqi ilə açan YAP Qobustan rayon təşkilatının sədri Qasım Qasımov güclü dövlətin formalaşmasında milli-mənəvi dəyərlərin, sağlam ictimai mühitin və sosial ədalət prinsiplərinin əhəmiyyətindən danışıb. O qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik strategiyası müasir Azərbaycanın siyasi, iqtisadi və sosial inkişafının əsas sütunlarını təşkil edir. Bu gün həmin siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsinə, dövlət müstəqilliyinin və suverenliyinin daha da gücləndirilməsinə xidmət edir.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva milli-mənəvi dəyərlərin qorunması, gender bərabərliyinin təşviqi, ailə institutunun möhkəmləndirilməsi və gənclərin cəmiyyət həyatında fəal iştirakının təmin edilməsinin vacibliyinə diqqət çəkib. Onun sözlərinə görə, sağlam cəmiyyətin formalaşması üçün milli kimliyə bağlılıq, vətənpərvərlik, təhsil və sosial məsuliyyət kimi dəyərlər xüsusi əhəmiyyət daşıyır.

YAP İdarə Heyətinin üzvü Vazeh Əskərov Azərbaycan dövlətçiliyinin ideoloji əsaslarının formalaşmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna rolundan danışıb. O, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin partiyanın VIII Qurultayında səsləndirdiyi fikirlərə toxunaraq bildirib ki, milli-mənəvi dəyərlərə sadiq, savadlı, müasir biliklərə yiyələnmiş və geniş dünyagörüşünə malik gəncliyin yetişdirilməsi ideoloji dayanıqlılığın mühüm şərtlərindəndir.



YAP Veteranlar Şurasının üzvü Fidumə Hüseynova çıxışında güclü dövlət və sağlam cəmiyyət anlayışlarının qarşılıqlı əlaqəsindən danışıb. O, ailə dəyərlərinin qorunması, uşaqların və gənclərin hərtərəfli inkişafı, sosial müdafiəyə ehtiyacı olan şəxslərə diqqət və qayğı göstərilməsinin sağlam cəmiyyətin formalaşmasında mühüm rol oynadığını vurğulayıb. Qeyd edib ki, hər bir vətəndaş üçün bərabər imkanların yaradılması dövlətin sosial siyasətinin əsas istiqamətlərindəndir.

Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların bölgələrin iqtisadi və sosial potensialının inkişafına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına verdiyi töhfələrdən bəhs edib. O vurğulayıb ki, dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, sosial məsələlərin həlli prioritet vəzifə kimi diqqət mərkəzində saxlanılır və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

İnteraktiv formada davam edən tədbirdə iştirakçıların sualları cavablandırılıb.

Sonra partiya sıralarına yeni qəbul olunan bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

İtkin düşmüş şəxslərin taleyi BMT-nin gündəmində...

Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş "İtkin düşmüş şəxslər" qətnaməsi dünya ictimaiyyəti üçün mesajdır

Ermənistan torpaqlarımızın işğalı dövründə xalqımıza qarşı çoxsaylı cinayətlər törədib. Azərbaycana qarşı hərbi təcavüz zamanı dinc insanlar kütləvi qətlə yetirilib, girov götürülüb, eləcə də yaşayış məntəqələri tamamilə dağıdılıb. Eyni zamanda, müharibə dövründə itkin düşmüş minlərlə azərbaycanlının taleyi bugünədək məlum deyil.

288 qadın, 71 uşaq və 319 yaşlı insan...

Ermənistanın Azərbaycana qarşı otuz ildən artıq davam edən hərbi təcavüzü nəticəsində uşaqlar, qadınlar və ahıllar da daxil olmaqla, 4010 azərbaycanlı itkin düşmüş şəxs kimi qeydə alınıb. Vətən müharibəsində qazandığımız tarixi Zəfər və torpaqlarımızın işğaldan azad edilməsi isə itkin düşmüş vətəndaşlarımızın axtarışı üçün yeni imkanlar açıb. Hazırda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası fəaliyyətini daha da genişləndirərək itkin düşmüş vətəndaşların yerinin müəyyənləşdirilməsi, kütləvi məzarlıqların aşkar edilməsi məqsədilə intensiv tədbirlər həyata keçirir.

Eyni zamanda, bu istiqamətdə həqiqətlər beynəlxalq tribunalardan dünya ictimaiyyətinin diqqətinə çatdırılır. Ötən ay Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin birinci katibi Şəhriyar Hacıyev BMT Baş Assambleyasının 81-ci sessiyasının Üçüncü Komitəsində keçirilən interaktiv dialoq zamanı bu mövzuya diqqət çəkmişdi. O bildirib ki, keçmiş münaqişə nəticəsində itkin düşmüş 4 mindən çox şəxsin taleyinin müəyyənləşdirilməsi Azərbaycan üçün münaqişədən sonrakı dövrdə əsas prioritetlərdən biri olaraq qalır. Keçmiş münaqişə ilə əlaqədar 4 mindən çox şəxs itkin düşmüş hesab olunur və onların arasında 288 qadın, 71 uşaq və 319 yaşlı şəxs var.

Eyni zamanda, oktyabrın 7-dən 10-dək Bakıda bu mövzuya həsr olunmuş beynəlxalq konfrans keçirilib. Belə ki, "İtkin düşmüş şəxslər probleminin həllində etimadın gücləndirilməsi və effektiv mexanizmlərin inkişaf etdirilməsi" mövzusunda keçirilən IV beynəlxalq konfransda vacib məsələlər müzakirə olunub. Nəzərə alaq ki, itkin düşmüş şəxslərin axtarışlarının səmərəliliyi dəqiq məlumatların əldə olunmasından bilavasitə asılıdır. Ermənistan itkin düşmüş azərbaycanlıların taleyi, kütləvi və fərdi dəfn yerləri barədə bütün məlumatları təqdim etməli, müvafiq arxivlərin açılmasına və şahid ifadələrinin toplanmasına şərait yaratmalıdır. Bu, hüquqi öhdəlik və humanitar məsuliyyət olmaqla yanaşı, sülhə sadiqliyin əməli ifadəsi, qarşılıqlı etimadın möhkəmləndirilməsinə töhfə olardı. İnsan talelərinə aid məlumatlar siyasi şərtləndirmə predmeti olmamalıdır. Müraciətdə, həmçinin vurğulanıb ki, əsir və girovların beynəlxalq təşkilatlardan gizlədilməsi, işgəncə ilə öldürülməsi və cinayətlərin izlərinin ört-basdır edilməsi beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Bu əməllərə hüquqi qiymət verilməlidir.



63 üzv dövlət həmmüəllif qismindədir

Ölkəmizin bu istiqamətdə beynəlxalq əməkdaşlığının məqsədi yalnız müzakirələrlə kifayətlənməmək, etimadı və əməkdaşlığı gücləndirən, ailələrin həqiqəti bilmək hüququnun təmin olunmasına xidmət edən, məlumat mübadiləsini asanlaşdıran, həmçinin müasir məhkəmə-tibbi, DNT və texnoloji imkanların tətbiqini genişləndirən praktiki və dayanıqlı mexanizmlərin formalaşdırılmasına töhfə verməkdir. Yeri gəlmişkən, noyabrın 10-da Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş "İtkin düşmüş şəxslər" adlı qətnamə Üçüncü Komitənin (Sosial, Humanitar və Mədəniyyət Məsələləri) 41-ci plenar iclasında konsensusla qəbul edilib. Qətnaməyə müxtəlif regionları təmsil edən 63 üzv dövlət həmmüəllif qismində qoşulub.

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, Azərbaycanın ilk dəfə 2002-ci ildə Baş Assambleyanın 57-ci sessiyasında irəli sürdüyü və uzun illərdir davam etdirdiyi bu təşəbbüs itkin düşmüş şəxslərlə bağlı beynəlxalq humanitar hüquq, habelə müvafiq hallarda beynəlxalq insan hüquqları hüququ ilə tamamlanan öhdəlikləri bir daha təsdiq edir. Qətnamədə silahlı münaqişə tərəfi olan dövlətlərə şəxslərin itkin düşməsinin qarşısını almaq və itkin düşmüş şəxslərin taleyini müəyyənləşdirmək məqsədilə bütün müvafiq tədbirləri görmək barədə çağırış vurğulanır. Eyni zamanda, itkin düşmüş şəxslərlə bağlı halların cinayət əməli təşkil edən hərəkətlərlə əlaqəli olduğu xatırladılır və itkin düşmüş şəxslərlə bağlı beynəlxalq humanitar hüququn və beynəlxalq insan hüquqları hüququnun pozulmasına görə cəzasızlığa son qoyulmasının vacibliyi vurğulanır.




Qətnamədə dövlətlər itkin düşmüş şəxslərlə bağlı məsələlərin həllində, o cümlədən dəfn yerlərinin müəyyənləşdirilməsi, xəritələşdirilməsi və qorunub saxlanılması yolu ilə əməkdaşlığa çağırılır. Qətnamədə bu kontekstdə, ilk dəfə olaraq, fərdi, kollektiv və kütləvi məzarlıqlara açıq şəkildə istinad edilir. Həmçinin qətnaməyə sülh və sülh quruculuğu prosesləri kontekstində itkin düşmüş şəxslər məsələsinin həllinin əhəmiyyətini vurğulayan, onların taleyinin müəyyənləşdirilməsi məqsədilə bu məsələnin qeyd olunan proseslərə inteqrasiyasını təşviq edən yeni müddəalar da daxil edilib.

Sənəddə, habelə minaların, müharibənin partlayıcı qalıqlarının və kustar üsulla hazırlanmış partlayıcı qurğuların itkin düşmüş şəxslərin olduğu yerin müəyyənləşdirilməsi istiqamətində səylərə maneə törətməsindən narahatlıq ifadə edilir. Bundan əlavə, BMT Baş katibindən qətnamənin icrası ilə bağlı İnsan Hüquqları Şurasına və Baş Assambleyaya hərtərəfli hesabat təqdim etməsi sorğu olunur. Qətnamədə müvafiq BMT qurumlarının və Baş Assambleyanın müşahidəçilərinin iştirakı ilə Baş Assambleyanın yüksəksəviyyəli qeyri-rəsmi iclasının çağırılması və həmin iclasda BMT Baş katibi tərəfindən məruzə ilə çıxış edilməsi və ardınca interaktiv dialoqun keçirilməsi xahiş olunur. "İtkin düşmüş şəxslər" adlı qətnamənin konsensusla qəbul edilməsi bu aktual humanitar problemin həlli ilə bağlı beynəlxalq ictimaiyyətin ortaq öhdəliyinə dair güclü bir mesajdır.

Baş Assambleyanın yüksəksəviyyəli iclasının çağırılması təklif edilir

Nardar BAYRAMLI

Göy məscidin təhqir olunması yolverilməzdir!





AZƏRBAYCAN RESPUBLİKASININ
DİNİ QURUMLARLA İŞ ÜZRƏ
DÖVLƏT KOMİTƏSİ

Məscidin mərasim zalına erməni şairin adının verilməsi növbəti təxribatdır

Göy məscid XVIII əsrdə İrəvan xanlığı dövründə, Hüseynəli xanın hakimiyyəti illərində inşa edilmiş Azərbaycan memarlıq və dini irsinin mühüm nümunəsidir. Tarixdə Göy məscid, Göy cami və Hüseynəli xan məscidi adları ilə tanınan bu abidə İrəvanın müsəlman əhalisinin dini və ictimai həyatında mühüm yer tutub, şəhərin mədəni simasının formalaşmasında əhəmiyyətli rol oynayıb. Onun tarixi mənsubiyyəti məscidin memarlıq xüsusiyyətləri, inşa edildiyi dövr və İrəvan xanlığının dövlətçilik tarixindəki yeri ilə bilavasitə bağlıdır. Lakin Sovet hakimiyyəti dövründə burada dini fəaliyyət dayandırılıb, bina müxtəlif dünyəvi məqsədlərlə, o cümlədən muzey kimi istifadə edilib.

1995-2006-cı illərdə isə İran tikinti şirkətlərinin dəstəyi ilə bərpa edilib. Hazırda "Fars məscidi" adı ilə təqdim olunur. Ermənilər məscidin adını kalka yolu ilə tərcümə edərək Kapuyt mzkit (ermənicədə: kapuyt - göy, mzkit - məscid deməkdir) də adlandırırlar. Ermənistanın məqsədi Azərbaycan xalqına məxsus tarixi, mədəni və dini irsin izlərini silməkdir. Bugünlərdə İrəvanda Göy məscid kompleksində mərasim zalına rəsmən erməni şairi Yeğişe Çarentsin adının verilməsi ilə bağlı tədbirin keçirilməsi də bunun göstəricisidir. Təəssüf ki, həmin tədbirdə Ermənistanda işgüzar səfərdə olan İranın vitse-prezidenti Seyid Həmid Purməhəmmədi də olub və məscidin mərasim zalında erməni şairin adının yazıldığı lövhənin açılışını edib. Gələcəkdə orada erməni şairin büstünün qoyulması planlaşdırılır.

QMİ etiraz edir

Azərbaycan müsəlmanları isə İrəvandakı tarixi Göy məscidində müsəlman dini mərasimi ilə bir araya sığmayan tədbirin keçirilməsinə etiraz ediblər. Bu barədə Qafqaz Müsəlmanları İdarəsinin bəyanatında qeyd olunub ki, bu hal Azərbaycan dini-mənəvi irsinə qarşı qeyri-etik, təhrifedici münasibətin göstəricisi olub, aşkar vandalizm təzahürü və təxribatdır: "Azərbaycan xalqının tarixi dini abidələrindən biri olan İrəvan Göy məscidi, ermənilərin uzun onilliklər ərzində işğal etdikləri tarixi torpaqlarımızda həyata keçirdikləri vandalizmdən, təəssüflər olsun ki, kənar qalmayıb. Dağıdılan, yandırılan, İslamda haram buyurulan heyvanların saxlanılması ilə həqarət edilən dini ibadətgahlarımızın, o cümlədən Şuşadakı tarixi məscidlərimizin ardınca bu gün İrəvan Göy məscidinin zalına erməni şairin adının verilməsi, müsəlman ibadət məkanında gələcəkdə həmin ermənіyə büstün quraşdırılmasının nəzərdə tutulması, ümumən küfrdən başqa bir şey deyil. Mədəni xalqlar hər hansı kitab təqdimatını başqa dinə mənsub ibadət məkanında deyil, öz mədəniyyət ocaqlarında keçirirlər. Mədəni tədbir adına məsciddə şou düzənləmək heç kəsə başucalığı gətirə bilməz".

Bildirilib ki, Azərbaycan ərazilərinin erməni qoşunlarının işğalından azad edilməsindən sonra indiki Ermənistanda qalan tarixi Azərbaycan mədəni-mənəvi irsindən öz aləmlərində hayıf çıxmaq, XVIII əsrdə İrəvan xanı Hüseynəli xanın inşa etdirdiyi, Azərbaycan memarlığının nadir incilərindən biri olan məscidin tarixini saxtalaşdıraraq, İran məscidi kimi qələmə verərək orada qurama tədbirlər keçirmək cəhdləri iflasa məhkumdur. "Bu mədəni tədbir adı altında baş tutan qeyri-mədəni şounu qətiyyətlə pisləyir, belə halların qarşısının alınmasını Ermənistan hökumətindən tələb edirik. 44 günlük Vətən müharibəsi nəticəsində kapitulyasiya etmiş Ermənistanın sülh danışıqlarına sədaqət nümayiş etdirməsi fonunda belə bir halın baş verməsi sülh prosesini şübhə altına alır. Bu, yalnız revanşistlərin maraqlarına xidmət edir", - deyə bəyanatda qeyd olunub.

Dövlət Komitəsi: Bu addım bəşəri dəyərlərə hörmətsizlikdir

"İrəvanda yerləşən, Azərbaycan xalqının qədim tarixi-mədəni irsinin nümunələrindən biri olan Göy məscidin mərasim zalına erməni şairi Yeğişe Çarentsinin adının verilməsi tarixi-mədəni kimliyin təhrif olunmasına yönəlmiş növbəti cəhd olmaqla bütün dünyanın bölüşdüyü, beynəlxalq konvensiyalarda təsbit olunmuş bəşəri dəyərlərə hörmətsizlik, sülh və qarşılıqlı etimad mühitinin formalaşdırılması istiqamətində aparılan səylərə qarşı təxribatdır". Bu fikirlər isə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaydığı bəyanatda yer alıb. Bəyanatda vurğulanıb ki, Göy məscidin mərasim zalında büstün qoyulması təşəbbüsü Ermənistan tərəfinin, xüsusilə də bu ölkənin siyasi rəhbərliyinin tarixi abidənin ilkin təyinatına və mənsubiyyətinə obyektiv, qərəzsiz münasibəti ilə bağlı ciddi suallar yaradır. Bu cəhdlər Göy məscidin tarixi-mədəni kimliyinin arxa plana keçirilməsinə və başqa mədəniyyətə aid abidə kimi təqdim olunmasına xidmət edir. Tarixi abidələrin qorunması onların yalnız fiziki mövcudluğunun təmin edilməsini deyil, həm də mənsubiyyətinə, ilkin təyinatına və mədəni kimliyinə hörmətlə yanaşılmasını tələb edir.

1995-ci ildə İranla Ermənistan arasında əldə olunmuş razılaşma əsasında "rekonstruksiya" işlərinin maliyyələşdirilməsi İran tərəfinə həvalə edilib. Lakin bu proses məscidin tarixi mənsubiyyətinin dəyişdirilməsi və ya onun ilkin memarlıq xüsusiyyətlərinin başqa mədəniyyətin adı ilə təqdim edilməsi üçün əsas ola bilməz. Çünki istənilən mədəni irs nümunəsinin hansısa ölkənin vəsaiti hesabına bərpa edilməsi onun həmin ölkəyə məxsus olduğunu iddia etmək üçün əsas hesab edilmir. Göy məscidin tarixi kimliyi onun inşa edildiyi dövr, İrəvan xanlığı və şəhərin Azərbaycan mədəni irsi ilə bağlılığı əsasında qiymətləndirilməlidir. Abidənin "fars məscidi" kimi təqdim olunması, adının və tarixi kontekstinin dəyişdirilməsi cəhdləri elmi-tarixi yanaşmaya deyil, siyasi məqsədlərə xidmət edir.

Dövlət Komitəsi xüsusi olaraq vurğulayıb ki, mədəni irsin qorunması beynəlxalq hüququn mühüm prinsiplərindən biridir: "UNESCO-nun "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyası mədəni sərvətlərin silahlı münaqişə zamanı qorunmasını, onlara qarşı düşmənçilik hərəkətlərinin, talan və mənimsəmə hallarının qarşısının alınmasını nəzərdə tutur. UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il tarixli Konvensiyası isə dövlətlərin öz ərazilərində yerləşən mədəni irsin müəyyənləşdirilməsi, mühafizəsi, qorunması və gələcək nəsillərə ötürülməsi üzrə məsuliyyətini təsbit edir".

Xalqımızın dini hisslərini hədəf alan vandalizm əməlləri...


Təəssüflə qeyd edilib ki, Ermənistan işğal dövründə Qarabağ və Şərqi Zəngəzur ərazilərində məscidlərə münasibətdə tətbiq etdiyi neqativ təcrübəni bu gün yenidən istifadə edir. Azərbaycan xalqı 2019-cu ildə Şuşadakı Yuxarı Gövhər Ağa məscidində təmir adı altında aparılan işlərə İran İslam Respublikasında fəaliyyət göstərən şirkətin cəlb edilməsini, onun və Ağdam Cümə məscidinin "fars məscidləri" kimi təqdim olunmasını unutmayıb. Biz, eyni zamanda işğal altında olmuş digər ərazilərdəki qədim məscid və ibadət yerlərinin dağıdılmasını, təhqir olunmasını, xalqımızın dini hisslərini hədəf alan vandalizm əməllərini də dərin məyusluq və acı təəssüf hissi ilə xatırlayırıq. Hazırda Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərdəki bütün dini-mədəni abidələrin bərpasını həyata keçirir, onların tarixi bərpası istiqamətində ardıcıl tədbirlər görür. Lakin fiziki dağıntıların aradan qaldırılması işğal dövründə törədilmiş vandalizm aktlarının xalqımızın tarixi yaddaşında yaratdığı mənəvi izləri silmir.

Dövlət Komitəsi hesab edir ki, mədəni irs nümunələrinin qorunması məsələsində vahid və obyektiv meyarlar əsas götürülməli, onların bərpası və istifadəsi zamanı tarixi mənsubiyyətinə, ilkin memarlıq xüsusiyyətlərinə və dini təyinatına hörmətlə yanaşılmalıdır. Bu baxımdan İrəvandakı Göy məscidin tarixi kimliyinin təhrif edilməsinə yönəlmiş cəhdlər mədəni irsə münasibətdə eyni prinsiplərin hər yerdə qorunmasının vacibliyini bir daha gündəmə gətirir. "Göy məscidin tarixi mənsubiyyətinin təhrif edilməsinə və Azərbaycan xalqının mədəni-dini irsinin mənimsənilməsinə yönəlmiş cəhdlərə etirazımızı bildirir, İran və Ermənistan tərəflərini tarixi faktlara hörmətlə yanaşmağa, dini və mədəni abidələrdən siyasi-ideoloji məqsədlər üçün istifadə etməkdən çəkinməyə çağırırıq", - deyə bəyanatda vurğulanıb.


Nardar BAYRAMLI

3,6 milyard dollar...

Qeyri-neft ixracı 20,8 faiz artıb



2026-cı ilin yanvar-oktyabr aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri (qeyri-monetar qızıl istisna olmaqla) ötən ilin eyni dövrü ilə müqayisədə 20,8 faiz artaraq 3,6 milyard dollar təşkil edib. Təkcə oktyabr ayında ölkənin qeyri-neft-qaz sektoru üzrə ixracının dəyəri 1 il əvvələ nisbətən 23 faiz çox - 414,2 milyon dollar olub. Ümumilikdə, ötən 10 ayda şəkər və şəkərdən hazırlanan qənnadı məmulatlarının ixrac dəyəri 2,4 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixrac dəyəri 39,2 faiz, qara metal məmulatların ixrac dəyəri 34 faiz, bitki və heyvan mənşəli piy-yağların ixrac dəyəri 27,1 faiz, mis və ondan hazırlanan məmulatların ixrac dəyəri 24,9 faiz, üzvi kimyəvi birləşmələrin ixrac dəyəri 16,1 faiz, pambıq lifinin ixrac dəyəri 14,2 faiz, tərəvəzlərin ixrac dəyəri 11,6 faiz , qəhvə və çayın ixrac dəyəri 10,9 faiz, yeməli meyvələrin ixrac dəyəri isə 6,7 faiz artıb.



Ötən 10 ay ərzində aqrar məhsulların ixrac dəyəri 12,7 faiz artaraq 866,9 milyon dollar, aqrar-sənaye məhsullarının ixrac dəyəri 28,8 faiz artaraq 334,9 milyon dollar, bütövlükdə isə aqrar və aqrar-sənaye məhsullarının birgə ixrac dəyəri isə 16,7 faiz artaraq 1,2 milyard dollar təşkil edib.

Çinə yeni qida malları ixrac olunacaq

Hazırda qeyri-neft məhsullarının ixracı ilə bağlı yürüdülən siyasətin əsas prioritetlərindən biri ənənəvi bazarlardan yeni ticarət nöqtələrinə çıxışın şaxələndirilməsidir. Bu siyasət çərçivəsində Mərkəzi Asiya, körfəz regionu və digər regionlarda ticarət missiyalarının təşkili nəzərdə tutulur. Eləcə də, həmin regionlarda fəaliyyət göstərən Ticarət Evlərinin dəstəyi ilə mal qruplarının strukturunun yenilənməsi planlaşdırılır. Məsələn, Azərbaycanın Çindəki ticarət Evlərində yeyinti məhsullarının tərkibinin daha da genişləndirilməsi məqsədilə yeni bazar marketinqləri araşdırılır. Hazırda Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycanın Ticarət Evləri açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib. Yaxın vaxtlarda markentinq araşdırmalarının nəticəsi olaraq qeyd edilən ölkənin bazarında yeni mal qrupları əlavə edilcək. Xurma ixracının Çindəki ticarət şəbəkələrinə çatdırılması mümkün olacaq ki, bu da hazırda həmin məhsulun satışında problemlərlə üzləşən sahibkarların işini asanlaşdıracaq. Bundan başqa, digər istiqamət kimi Yaxın Şərq bazarına da xurma və digər malların ixracı nəzərdə tutulur.

İxracyönümlü iqtisadiyyata keçidin təmin olunması

Azərbaycanın qarşısında duran müasir iqtisadi çağırışlardan biri ixracyönümlü iqtisadiyyata keçidin təmin olunması, Avropa, Asiya və digər region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağı tarifli mühitdə səmərəli gömrük prosedurlarının tətbiqi nəticəsində mövqeyinin gücləndirilməsidir. Bu məqsədlə ölkəmizin şaxələndirilmiş nəqliyyat-logistika imkanlarından və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə ixrac potensialının daha da yüksəldilməsi, transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur.

Qlobal bazarlarda ərzaq ehtiyatları uğrunda rəqabətin güclənməsi də ixracın şaxələnməsini və dayanıqlığını aktuallaşdırır. Bu prosesdə Ticarət Evlərinin üzərinə böyük məsuliyyət düşür. Ticarət Evləri Azərbaycan məhsullarının xarici ölkələrdə təşviqi üçün faydalı iqtisadi platforma rolu oynadığından ixrac xəritəsinin coğrafiyasını genişləndirilməsi üçün daha güclü tədqiqlərə ehtiyac var. Xüsusilə də, potensial ixrac bazarları olan ölkələrdə logistika mərkəzlərinin yaradılmasında bu strukturlarla fəaliyyətinin əlaqələndirilməsi mühüm çağırışlardan biridir.

Beynəlxalq məhsul sertifikatlarının alınmasını dövlət maliyyələşdirəcək

İxracla bağlı digər addım dövlətin institusional və maddi dəstəyinin artırılmasıdır. Artıq 2 aydır ki, dövlət qeyri-neft məhsulları ixracatçılarına çəkdikləri logistikası xərclərinin 70 faizinə subsidiya verir və xərclər dövlət tərəfindən qarşılanır. Subsidiya Şurasının qərarına əsasən, 2027-ci ildən beynəlxalq məhsul sertifikatlarının alınması da dövlət tərəfindən maliyyələşdiriləcək. Söhbət Global G.A.P, ISO və orqanik məhsul sertifikatları kimi beynəlxalq standartlardan gedir.

Beləliklə, fermerlər istehsalın təşviqi ilə yanaşı, logistika və sertifikatlaşdırma istiqamətlərində də dövlət dəstəyi alacaqlar.

Bütün bu dəstək mexanizmlərinin özəl sektorun istehsal etdiyi qeyri-neft məhsullarının dünya bazarına çıxarmasına xidmət edir. Bu isə öz növbəsində ixracatçıların fəaliyyətinin genişləndirilməsinə və yeni bazarlara çıxışa şərait yaradacaq. Xarici bazarlara çıxış imkanlarının genişlənməsi daxili bazarda rəqabəti artırmaqla, yerli şirkətləri daha keyfiyyətli məhsul istehsalına stimullaşdıracaq və beynəlxalq standartlara uyğun istehsal zəncirinin qurulması möhkəmlənəcək.

E.CƏFƏRLİ

Ötən 10 ayda...

Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 13,1 faiz artıb

2026-cı ilin yanvar-oktyabr ayları ərzində ölkəmizdə qeyri-neft sektoru üzrə iqtisadi fəallıq artıb və bu dinamika fiskal yığımlara mühüm təsir göstərib. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) tərəfindən ötən 10 ayda 16 milyard 65,2 milyon manat vergi toplanıb ki, onun 11 milyard 776 milyon manatı qeyri-neft-qaz sektoruna aiddir. Qeyd edilən sektordan vergi daxilolmalarının həcmi büdcədə nəzərdə tutulan proqnozdan 297,4 milyon manat çoxdur. Eyni zamanda, 2025-ci ilin müvafiq dövrünə nisbətən bu sektordan vergi daxilolmaları 1 milyard 364,6 milyon manat və ya 13,1 faiz artıb.

Sosial sığorta daxilolmaları 5,6 milyard manatı ötüb

Qeyri-neft sektorundakı artım digər yığım mənbələrində də özünü göstərib. Belə ki, yanvar-oktyabr aylarında məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 5 milyard 672,8 milyon manat olub, proqnozdan əlavə 297,1 milyon manat vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 3 milyard 838,5 milyon manatdan çox təşkil edib.



Həmin dövrdə işsizlikdən sığorta haqları üzrə daxilolmalar 201,5 milyon manata yaxın olub, proqnozdan əlavə 8,3 milyon manat vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 156,5 milyon manat təşkil edib.

İcbari tibbi sığorta haqları üzrə daxilolmaların həcmi 849,3 milyon manatdan çox olub, proqnozdan əlavə 20,4 milyon manat vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 570,9 milyon manata yaxın təşkil edib.

50 milyarddan 90 milyard manata çatan əlavə dəyər

Hazırda qeyri-neft ÜDM-in həcmi cəmi ölkə üzrə yaradılan əlavə dəyərin (illik) təxminən 90,2 milyard manatına bərabərdir. Halbuki bu rəqəm, 2020-ci ildə 50,8 milyard manat təşkil edirdi. Cəmi 5 il ərzində (2026-cı il nəzərə alınmadan) bu sektorda təxminən 70 faizlik artım baş verib. Bu, iqtisadiyyatın strukturunda dərinləşən dəyişimin göstəricisidir və iqtisadi genişlənmə qeyri-neft drayverləri olan istehsal, sənaye, turizm, xidmət və innovasiyalar, tranzit daşınmaları üzrə təmin edilməkdədir. Son illərdə sənaye zonaları, aqroparklar, logistika və nəqliyyat layihələrinə yönələn investisiyalar, həmçinin turizm və texnologiya sahələrindəki genişlənmə nəticəsində Azərbaycan iqtisadiyyatı artıq neftdən kənar sabit gəlir mənbələri formalaşdırıb. Bu, onu göstərir ki, Azərbaycanın növbəti mərhələdə iqtisadi artımını təmin edən əsas qüvvə qeyri-neft sektoru olacaq - yəni ölkə tədricən xammaldan kapital və xidmət ixracatına keçid mərhələsinə qədəm qoyub, ölkə artıq təkcə neft gəlirləri ilə deyil, real sektorun və xidmət iqtisadiyyatının hesabına böyüyür.

Qeyri-neft ÜDM-nin ilin sonunda 100 milyard manata çatacağı gözlənilir

Qeyd edək ki, hökumət bir müddət əvvəl 2026-cı il üzrə yenilənmiş makroiqtisadi proqnozları açıqlayıb ki, sənəddə qeyri-neft sektoru üzrə artımın ilin əvvəlində tərtib edilmiş cari gözləntilərdən daha yüksək olacağı fərz olunur.

Hökumətin ortamüddətli dövr üzrə ssenarilərinə əsasən, ölkə üzrə orta illik artımın 3,3 faiz təşkil edəcəyi gözlənilir ki, inkişaf dinamikasında qeyri-neft-qaz sektoru üzrə temp 4,4- 4,5 faiz olacaq. Qarşıdakı 4 ildə inkişafın əsas əlavə dəyər yaradan sütunları kimi qeyri-neft mənbələri nəzərdə tutulub. Ortamüddətli dövrün ssenarilərinə əsasən, 2027-ci ildə ÜDM-də qeyri-neft sektorunun payı nominal ifadədə 109,1 milyard manat təşkil edəcək. Bu, faiz nisbəti ilə iqtisadi dəyərin 77,4 faizi deməkdir. 2028-ci ildə qeyri-neft sektorunun ÜDM-dəki xüsusi çəkisinin 118,3 milyard manata və ya 80,2 faizə, 2029-cu ildə 128,1 milyard manata və 80,8 faizə çatacağı fərz olunur. 2030-cu ildə isə proqnozlaşdırılan cəmi 169,1 milyard manat həcmində ÜDM-in 138,6 milyard manatın qeyri-neft yığımlarına söykənəcəyi gözlənilir. Bu, faiz göstəricisi ilə ÜDM-in 82 faizi deməkdir. Bu, qeyri-neft sektorunun yenə də iqtisadi-fiskal bölmələrinin əsas drayveri olacağını təsdiqləyir.

Beynəlxalq maliyyə institutlarının investisiyaları 4 dəfədən çox artıb

2026-cı ilin ötən aylarında beynəlxalq maliyyə institutları tərəfindən Azərbaycana kaptal qoyuluşları da artıb. Ölkə iqtisadiyyatına qeyri-suveren maliyyələşdirmə 185 milyon dollara çatıb və bu, ötən ilin eyni dövründəki 42 milyon dollarla müqayisədə 4,4 dəfə çoxdur. Artım Avropa Yenidənqurma və İnkişaf Bankının, OPEC Beynəlxalq İnkişaf Fondunun, Asiya İnfrastruktur İnvestisiya Bankının və Qara Dəniz Ticarət və İnkişaf Bankının (BSTDB) iştirakı ilə zəmanət və infrastruktur əməliyyatlarının artırılması sayəsində təmin edilib. Hesabat dövründə həyata keçirilən ən böyük əməliyyatlardan biri Avropa Bankının "AccessBank"a təqdim etdiyi, limiti 75 milyon avroyadək (təxminən 86 milyon ABŞ dolları) olan portfel zəmanətidir. Zəmanət kiçik və orta biznesə (KOB) verilən borclar üzrə kredit riskinin 50 faizlik hissəsini əhatə edir.

Bundan əlavə, 2026-cı ilin ötən dövründə Asiya İnfrastruktur İnvestisiya Bankı Xəzər dənizi suyunun duzsuzlaşdırılması zavodunun tikintisi üçün 45 milyon dollar həcmində kredit yönəldərək, ilk dəfə olaraq Azərbaycanın su sektorunda layihəni təsdiqləyib. 40 milyon dollar məbləğində borc ayıran OPEC Fondu da bu layihənin birgə maliyyələşdirilməsinə qoşulub. Qeyd olunan təşəbbüslər hesabına üçüncü rüb ərzində regionun su təsərrüfatı sektoruna beynəlxalq maliyyə təşkilatlarının yatırımları 85 milyon dolları təşkil edib.

E.CƏFƏRLİ

Dünya üçün qarşıdakı onilliyin əsas çağırışı: İqlim ədaləti!

Hazırda dünya olduqca çətin bir dönəmdən keçir. Bəşəriyyətin üzləşdiyi ən ciddi təhdidlərdən biri də qlobal istiləşmə ilə bağlıdır. Güclü sənaye inkişafının nəticəsi olaraq qlobal istiləşmənin sürətlənməsi fonunda iqlim məsələlərinin aktuallığı heç vaxt olmadığı qədər artıb. Təsadüfi deyildir ki, BMT-nin Baş katibi Antonio Quterreş Antalyada keçirilən COP31-in Liderlər Sammitinin açılış mərasimindəki çıxışında qlobal istiləşmənin sürətlənməsinin ehtimal olunan fəsadları ilə bağlı növbəti dəfə həyəcan təbili çalıb və beynəlxalq birliyə çağırışlarını dilə gətirib.

İqlim dəyişmələri qlobal səciyyə daşıyır. Onun fəsadlarından bütün ölkələr bu və ya digər dərəcədə təsirlənirlər. Buna görə də iqlim dəyişmələrinə qarşı mübarizədə beynəlxalq həmrəyliyə ciddi ehtiyac var. BMT-nin Baş katibi bu reallığa diqqət çəkməklə bəşəriyyətin ortaq məsuliyyət, müştərək təhlükəsizlik və qarşılıqlı fayda prinsiplərinə əsaslanan iqlim ədaləti ilə bağlı yeni bir razılaşmaya ehtiyacı olduğunu bildirib. "Ümumi, lakin fərqli məsuliyyətlər" prinsipinə riayət edilməli, hər bir ölkə öz töhfəsini verməlidir", - deyə Antonio Quterreş vurğulayıb.

BMT-nin yeni hesabatı - mütəxəssislər həyəcan təbili çalırlar

Baş katib son dörd ili tarixdə ən isti dövr kimi səciyyələndirib. Bu da gözlənilən iqlim fəsadlarının nə qədər ağır ola biləcəyindən xəbər verir. BMT-nin Ətraf Mühit Proqramının (UNEP) dəstəyi ilə hazırlanan və bir qədər bundan əvvəl yayılan son hesabatında mütəxəssislər həyəcan təbili çalırlar. Hesabatda vurğulanır ki, qlobal temperaturun sənayeləşmədən əvvəlki dövrlə müqayisədə 1,5 dərəcə Selsidən çox artması kriosferdə - buzlaqlarda, qütb buz örtüklərində, çoxillik buzlaq ərazilərdə və dəniz buzlaqlarında geridönməz dəyişikliklərə səbəb ola bilər. Yeni qiymətləndirmələrə əsasən, iqlim dəyişmələri ilə mübarizədə beynəlxalq səylər gözlənilən nəticəni vermir. Ölkələrin istixana qazlarının azaldılması ilə bağlı mövcud öhdəlikləri tam yerinə yetirilsə belə, Yer kürəsinin temperaturunun artmasının qarşısını almaq mümkün olmayacaq.

Hesabatda ölkələrin iqlimlə bağlı vədlərini yerinə yetirməsi ssenarisində belə, qlobal temperaturun sənayeləşmədən əvvəlki dövrlə müqayisədə əsrin sonunadək 2,6-2,8 dərəcə Selsi yüksələ biləcəyi qeyd olunur. Bu proqnoz Paris İqlim Sazişində müəyyənləşdirilmiş temperatur artımını 2 dərəcədən xeyli aşağı səviyyədə saxlamaq və mümkün olduqda 1,5 dərəcə ilə məhdudlaşdırmaq məqsədləri ilə uzlaşmır. Vurğulanırr ki, planetin temperaturu əvvəlki hesablamalarla müqayisədə daha yüksək səviyyəyə çata bilər. Yeni qiymətləndirmə ötənilki proqnozdan 0,1 dərəcə Selsi yüksəkdir.

Mütəxəssislərin qənaətinə görə, Paris Sazişində müəyyən edilmiş temperatur həddinin hətta müvəqqəti aşılması belə Yer kürəsinin iqlim sistemində uzunmüddətli fəsadlara yol açа bilər. Qrenlandiya və Antarktida buz örtüklərinin vəziyyəti xüsusi narahatlıq doğurur. Hazırda bu ərazilərdə buz itkisi 1990-cı illərlə müqayisədə təxminən altı dəfə sürətlə gedir. Hesabata əsasən, qlobal temperaturun 2,8 dərəcə artması nəticəsində Alp dağlarında, İslandiyada və Skandinaviyada mövcud buzlaq kütləsinin 10 faizindən də az hissəsi qala bilər. İstiləşmənin 1,5 dərəcə ilə məhdudlaşdırılması fonunda isə bu göstərici 20-35 faiz təşkil edəcək.

Bu kimi təhlükəli rallıqlar fonunda aydın şəkildə dərk olunur ki, iqlim dəyişmələri ilə mübarizə gələcəyin yox, məhz bu günün ən aktual məsələlərindən biridir. Bəşəriyyətin gələcəkdə su və ərzaq ehtiyatlarına çıxış imkanları, təbii fəlakətlər qarşısında ölkələrin hansı səviyyədə dayanıqlıq göstərəcəyi, ümumiyyətlə insanların hansı mühitdə yaşayacaqları indi qəbul olunacaq qərarlardan və görüləcək tədbirlərdən asılıdır.



Azərbaycanın 2024-cü ilin noyabrında ev sahibliyi etdiyi COP29 BMT tarixində ən nəticəyönümlü tədbirlərdən biri hesab olunur. Bakıda xüsusilə də maliyyələşmə, kiçik ada dövlətlərinə dəstək göstərilməsi, itki və zərər fondunun yaradılması ilə bağlı mühüm razılaşmalar əldə olunub. Bakıda qəbul olunan Hidrogen Bəyannaməsi, müəyyənləşdirilən şəbəkə gündəliyi böyük aktuallığa malikdir. Beynəlxalq səviyyədə də etiraf olunduğu kimi, COP29-da əldə olunmuş razılaşmalar iqlim dəyişmələri ilə mübarizədə gələcək addımların əsasını qoyub.

COP29-un zəngin mirası unudulmur. BMT-nin Baş katibi Antonio Quterreş COP29 iqlim konfransının yekunları üzrə qəbul edilmiş razılaşmaları yerinə yetirməyə çağırıb. "İnkişaf etmiş ölkələr 2035-ci ilə qədər ildə ən azı 300 milyard dollar məbləğində maliyyələşdirmənin təmin edilməsində aparıcı rol oynamalı, həmin müddətə qədər adaptasiyanın maliyyələşdirilməsini ən azı üç dəfə artırmaq üçün aydın aralıq hədəfləri olan konkret planlar təqdim etməlidirlər", - deyə Baş katib bildirib.

İqlim ədaləti haqqında yeni müqavilə imzalanmalıdır

Qardaş Türkiyənin ev sahibliyi ilə keçirilən COP31-də Antonio Quterreş beynəlxalq birliyə etdiyi çağırışında iqlim ədaləti haqqında yeni müqavilənin imzalanmasına zərurət yarandığını diqqətə çatdırıb. Onun çağırışında

-metan emissiyalarının kəskin azaldılması,

-bərpa olunan enerjinin, elektrik şəbəkələrinin və enerji saxlama sistemlərinin sürətli inkişafı,

-meşələrin, okeanların və biomüxtəlifliyin qorunub saxlanması,

-hər bir insanın erkən xəbərdarlıq sistemi ilə əhatə olunması və icmaların daşqın, quraqlıq və digər belə təbii fəlakətlərdən qorunması kimi aktual məsələlər önə çəkilib.

Baş katib qazıntı yanacaqlarından imtina etməyin vacibliyini vurğulayıb. O bildirib ki, qlobal emissiyalar hər il təxminən 6 faiz azaldılmalıdır. "Mövcud Milli Fəaliyyət Planları bu hədəfin yalnız üçdəbirinə çatır. Tam şəkildə həyata keçirilsə belə, əsrin sonuna qədər planet 2,5 dərəcədən çox istiləşəcək və bu da təhlükəli, geridönməz nəticələrə səbəb olacaq", -deyə BMT-nin Baş katibi xəbərdarlıq edərək bildirib.

BMT-nin rəhbəri planetin kəskin istiləşməsi fonunda vaxtın azaldığını qeyd edib: "Biz daha sürətli hərəkət etməliyik. İqlim ədaləti qarşıdakı onilliyin əsas çağırışıdır. Biz ölkələrdən iqtisadiyyatlarını dəyişdirmələrini tələb edə bilmərik, bu, onların imkanlardan məhrum olunmasına gətirib çıxarar", - deyə Antonio Quterreş bildirib.

Baş katib qeyd edib ki, inkişaf etməkdə olan ölkələr (Çin istisna olmaqla) dünya əhalisinin təxminən üçdə ikisinə malikdir, lakin onlar təmiz enerjiyə qlobal investisiyaların beşdəbirindən də azını yatırır. O, xəbərdarlıq edib: "Əgər bu ölkələr əlverişli təmiz enerjiyə çıxış əldə edə bilmirlərsə, yaranan çatışmazlıq qazıntı yanacaqları hesabına təmin ediləcək və bu da onilliklər ərzində yüksək həcmdə tullantılara səbəb olacaq".

Antonio Quterreş vurğulayıb ki, inkişaf etmiş ölkələr tullantıları daha sürətlə azaltmalı, habelə vəd edilmiş maliyyələşdirmə və texnologiyanı təqdim etməlidir. İnkişaf etməkdə olan iqtisadiyyatlar isə qazıntı yanacaqlarından bərpaolunan enerjiyə keçidi sürətləndirməli və genişmiqyaslı uyğunlaşma dəstəyi almalıdır. "2035-ci ilə qədər qlobal miqyasda bərpaolunan enerji tutumu 2025-ci il səviyyəsi ilə müqayisədə ən azı üç dəfə artmalı və tullantılar çıxılmaqla, kömür enerjisinin payı 75 faiz azaldılmalıdır", - deyə Antonio Quterreş əlavə edib.

O, bəşəriyyətin qarşısında bir seçimin olduğunu vurğulayıb: "Ya təmiz enerjiyə hamar keçid planlaşdırılmalı, ya da xaosun və itirilmiş dolanışıq vasitələrinin maliyyəti ödənilməlidir. Temperatur artdıqca, uyğunlaşma həyatda qalmaq məsələsinə çevrilir", - deyə BMT-nin rəhbəri bildirib.

COP29-da əldə olunan razılaşmalar yerinə yetirilməlidir

Onun sözlərinə görə, maliyyələşmə yetərli həcmdə olmalı və operativ şəkildə təmin edilməlidir. Eyni zamanda, 1,3 trilyon dollar məbləğində vəsaitin səfərbər edilməsi hədəfi inkişaf etməkdə olan ölkələrə daxil olan real maliyyə axınlarına çevrilməlidir. Bu xüsusda fikirlərinə davam edən A.Quterreş deyib: "Bunun üçün hər bir maliyyə mənbəyi öz töhfəsini verməlidir. Çoxtərəfli inkişaf bankları 2030-cu ilə qədər ildə 120 milyard dolların ayrılması ilə bağlı Bakıda (COP29-da) götürdükləri öhdəlik çərçivəsindən kənara çıxmalıdırlar".

O, həmçinin bu bankların səhmdarlarını inkişaf etməkdə olan həssas ölkələrin ehtiyaclarını nəzərə alaraq kreditləşməni artırmaq, özəl investisiyalar cəlb etmək, daha böyük risklər götürmək və innovativ maliyyə alətlərini tətbiq etmək imkanlarını genişləndirməyə çağırıb.

Bundan başqa, BMT-nin Baş katibi Yaşıl İqlim Fondunun və İtki və Zərərlərə Cavab Fondunun vəsaitlərinin əhəmiyyətli dərəcədə artırılmasının zəruriliyini vurğulayıb.

Mübariz ABDULLAYEV

KTMT-dən İrəvana sərt təpki

Artıq bir neçə ildir ki, Ermənistanla Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) arasında izlənilən ziddiyyətlər özünün kuliminasiya nöqtəsinə çatmaqdadır. Bu günlərdə KTMT-nin Moskvada keçirilən sammitinin iştirakçıları Ermənistanın təşkilatda səsvermə hüququndan və onun orqanlarında məsul vəzifələrə öz nümayəndələrini təyin etmək hüququndan məhrum edilməsi barədə qərar qəbul ediblər.

Bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib. Kremlin nümayəndəsi açıqlamasında qərarın KTMT-nin nizamnaməsinə uyğun olaraq qəbul edildiyini bildirib. D.Peskovun sözlərinə görə, buna əsas kimi Ermənistanın bir neçə il ərzində təşkilat qarşısında öhdəliklərini yerinə yetirməməsi göstərilib.

Xatırladaq ki, bundan əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistanın iki ildən artıqdır üzvlük haqlarını ödəmədiyini bildirmişdi.

Ermənistanın əsassız arqumenti - rəsmi İrəvan müharibədəki məğlubiyyətinin səbəbini KTMT-də axtarır

İlk növbədə onu aydınlaşdırmaq lazımdır ki, Ermənistanla KTMT arasında ziddiyyətlər hansı səbəblərə görə yaranıb. Müşahidələr onu göstərir ki, KTMT-də yer alan dövlətlərin Ermənistanın qurumdakı fəaliyyətini hansısa bir formada məhdudlaşdırmaq və yaxud bu ölkəni təşkilatdan tamamilə xaric etmək kimi bir niyyətləri olmayıb və bu gün də yoxdur.Hətta son illərdə rəsmi İrəvanın KTMT-yə münasibətdə nümayiş etdirdiyi adekvat olmayan davranışları belə üzv dövlətlər tərəfindən hər zaman səbrlə qarşılanıb.

Ziddiyyətlər sırf Ermənistan tərəfindən qaynaqlanır. Məlumdur ki, Ermənistan onilliklər boyunca Rusiyanın forpostu qismində çıxış edib. Elə bu ölkəni Moskvanın dominant rol oynadığı KTMT-yə gətirən əsas səbəb də Rusiyadan daha genişmiqyaslı dəstək və yardıım almaq niyyəti olub. Rəsmi İrəvan Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirmək və daha da genişləndirməklə bağlı qurduğu planlarda KTMT-ni ən etibarlı çətir hesab edirdi.

Ancaq hadisələrin sonrakı gedişi göstərdi ki, başda Nikol Paşinyan olmaqla Ermənistan rəsmiləri və ideoloqları düzgün dəyərləndirmələr aparmayıblar. Azərbaycan işğal faktı ilə barışmadı və 2020-ci il sentyabrın 27-də Ermənistanın keçmiş təmas xətti boyunca törətdiyi növbəti təxribatlara cavab olaraq genişmiqyaslı əks-hücum əməliyyatlarına başladı. Düşmən müharibənin ilk günündən ağır zərbələr aldı. Döyüş meydanında acınacaqlı məğlubiyyətə uğrayan Ermənistan dəhşətli müharibə cinayətlərinə əl atmaqla yanaşı, həm də KTMT-dən kömək istədi. Lakin rəsmi İrəvanın bu istəyi təmin oluna bilməzdi. Çünki müharibə Azərbaycan üçün ədalətli müharibə idi, döyüşlər ölkəmizin ərazisində gedirdi, faktiki olaraq Ermənistana hücum edilməmişdi. Məhz buna görə də KTMT-nin müharibəyə hər hansı formada müdaxilə etməsinə hüquqi əsas yox idi.

Digər tərəfdən, KTMT-də təmsil olunan dövlətlərin əksəriyyəti Azərbaycanla çox yaxşı münasibətlərə malikdirlər. Ölkəmiz qurumda təmsil olunmasa da, bütün üzv dövlətlərlə strateji tərəfdaşlıq münasibətləri qurub və bu münasibətləri ikitərəfli platformalarda uğurla inkişaf etdirir.

Beləliklə, rəsmi İrəvanın KTMT-dən müharibəyə müdaxilə etmək istəyi tamamilə əsassız arqumentə söykənirdi. Müharibə Ermənistanın tam kapitulyasiyası ilə başa çatdı. Bundan sonra rəsmi İrəvan, necə deyərlər, günah keçisi axtarışına çıxdı və müharibədəki uğursuzluğunu KTMT-nin öhdəliklərinə əməl etməməsi ilə əlaqələndirdi. Son altı ildə bununla bağlı Nikol Paşinyandan və onun komandasında yer alan rəsmilərdən bir-birini təkrarlayan açıqlamalar gəlməkdədir.



Ermənistanın KTMT-dən və Rusiyadan uzaqlaşmasının digər bir səbəbi isə rəsmi İrəvanın Avropa İttifaqına (Aİ) inteqrasiya kursu götürməsi ilə əlaqədardır. Ancaq bu siyasi kursun da perspektivi yoxdur. Ermənistanın özündə belə bu ssenariyə son dərəcə inamsız münasibət bəslənilir. İnamsızlığı şərtləndirən əsas amil isə bu ölkənin Rusiyadan iqtisadi asılılığıdır. Bundan başqa, Rusiyanın Ermənistanda hərbi mövcudluğu var. Eyni zamanda, Ermənistan reallıqlarının Avropa standartlarına uyğunlaşdırılması da mümkünsüz görünür...

KTMT-nin məxfi sənədlərinə çıxışın məhdudlaşdırılması gündəmdə

KTMT-də rəsmi İrəvan üçün dairə daralır. Rusiya mediası xəbər verir ki, Belarus xarici işlər naziri Maksim Rıjenkov İrəvanın təşkilatın məxfi sənədlərinə çıxışının məhdudlaşdırılmasının məqsədəuyğun olduğunu bildirib. Onun fikrincə, KTMT-də iştirakını faktiki olaraq donduran Ermənistanın qapalı məlumatlarla tam tanış olmaq imkanı saxlanılmamalıdır. Belarusun "Belarus 1" telekanalına müsahibəsində xarici işlər naziri Maksim Rıjenkov Ermənistanı "psevdomüttəfiq" adlandırıb və təşkilatın qapalı sənədlərinə tam çıxışın İrəvana etibar edilməsinin düzgün olmadığını bildirib. "Əminəm ki, ümumiyyətlə qapalı xarakter daşıyan bəzi sənədlərə çıxış məhdudlaşdırılacaq", - deyə Belarus XİN rəhbəri vurğulayıb.

Rıjenkovun fikrincə, məxfi məlumatlar nəzəri cəhətdən KTMT-ni həmrəylik prinsipi əsasında inkişaf etdirmək istəyən dövlətlərin maraqlarına qarşı istifadə oluna bilər. Buna görə də Ermənistanın belə sənədlərlə tam tanış olmaq imkanına malik olması sual doğurur. Belaruslu nazir xüsusilə vurğulayıb ki, Ermənistan xalqının inteqrasiya strukturlarına münasibəti dəyişməyib, dəyişən ölkənin ali siyasi rəhbərliyinin mövqeyidir. Onun sözlərinə görə, İrəvan həm KTMT-də, həm də Avrasiya İqtisadi İttifaqında (Aİİ) passiv və seyrçi iştirak nümayiş etdirir.

Nazir Ermənistanın inteqrasiya birliklərində iştirakını özünə sərf edən üstünlüklərdən yararlanmaq, lakin ümumi öhdəliklərdən uzaqlaşmaq cəhdi kimi qiymətləndirib. O, nümunə olaraq Ermənistana təqdim olunan əlverişli qaz və neft qiymətlərini, eləcə də malların son istehlakçılara çatdırılması üçün yaradılan nəqliyyat imkanlarını göstərib.

Belarus XİN rəhbərinin sözlərinə görə, İrəvan bu birliklərin təqdim etdiyi iqtisadi üstünlüklərdən yararlanır, ancaq həmin strukturların ümumi məqsədləri ilə üst-üstə düşməyən siyasət yürüdür. Nazir bildirib ki, bu cür yanaşma inteqrasiya təşkilatlarının inkişafında maraqlı olan digər dövlətlərin narahatlığına səbəb olur.

Qeyd edək ki, Ermənistan 2024-cü ildə KTMT-də iştirakını "dondurduğunu" elan edib və üzvlük haqlarını ödəməyi dayandırıb. Bununla belə, İrəvan təşkilatdan rəsmən çıxmayıb və hüquqi baxımdan üzv dövlət olaraq qalır. KTMT rəhbərliyi də Moskva sammitində Ermənistanın təşkilatdan çıxarılması məsələsinin müzakirə edilmədiyini açıqlayıb. Məxfi sənədlərlə bağlı məhdudiyyətin tətbiq edilib-edilməyəcəyi hələlik rəsmən açıqlanmayıb. Rıjenkovun bəyanatı bu məsələnin KTMT daxilində müzakirə oluna biləcəyinə işarədir.

Rəsmi İrəvanın KTMT-də hüquqlarını bərpa etməsinin şərti - borclar ödənilməlidir

Bəs Ermənistanın KTMT-də tamhüquqlu üzv statusunu bərpa etmək imkanı varmı? KTMT-nin Baş katibi Taalatbek Masadıkov təşkilatın Moskvada keçirilən sammitinin yekunlarına dair jurnalistlərə açıqlamasında bu sualın cavabına aydınlıq gətirib. O bildib ki, Ermənistan üzvlük haqları üzrə borcunu ödədikdən sonra Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının fəaliyyətində tamhüquqlu iştirakını bərpa edə və yenidən öz nümayəndələrini təşkilatın orqanlarına göndərə biləcək.

Baş katibin sözlərinə görə, sammitdə Ermənistanın təşkilatdan çıxarılması məsələsinə baxılmayıb. O əlavə edib ki, borcun ödənilməsi barədə qərar ölkə rəhbərliyinin səlahiyyətindədir.

"Ermənistan son üç il ərzində üzvlük haqlarını ödəməyib", - deyə Baş katib qeyd edib. Onun sözlərinə görə, həmin müddət ərzində Ermənistan KTMT Katibliyinə və Birləşmiş Qərargahına da əməkdaşlar göndərməyib. Bu ölkənin nümayəndələri iclaslara qatılsalar da, müzakirələrdə iştirak etməyiblər.

Kremlin sammitdə imzalanmış sənədlərin siyahısına daxil etdiyi qərarlar arasında KTMT Nizamnaməsinin 25-ci maddəsinin Ermənistana tətbiq edilməsi barədə qərar da yer alıb. Həmin sənədə əsasən, iki il ərzində təşkilat qarşısında maliyyə öhdəliklərini yerinə yetirməyən dövlət borcunu tam ödəyənədək səsvermə hüququndan və kvota üzrə vəzifələrə öz nümayəndələrini irəli sürmək imkanından məhrum edilə bilər.

Mübariz FEYİZLİ

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin layihələri – Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi, Binəqədi Yaşayış Kompleksi, Şirvan Yaşayış Kompleksi və Yevlax Yaşayış Kompleksində yerləşən mənzillərin güzəştlə satışı barədə

ELAN

Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Hava Limanı-Zığ şossesi 8-ci km, "10L" ünvanında yerləşən Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə 5 mənzilin, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbəsi, 10 may küçəsi, 590 saylı sahə ünvanında yerləşən Binəqədi Yaşayış Kompleksi üzrə 839 mənzilin, Şirvan şəhəri, Naxçıvan küçəsi, 58A ünvanında yerləşən Şirvan Yaşayış Kompleksi üzrə 201 mənzilin, Yevlax şəhəri, Rəşad Budaqov küçəsi, 1 ünvanında yerləşən Yevlax Yaşayış Kompleksi üzrə 4 mənzilin, ümumilikdə 1 049 mənzilin satışı 16 dekabr 2026-cı il tarixində saat 11:00-da başlayacaq və 16 dekabr 2026-cı il tarixi saat 13:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 16 dekabr 2026-cı il tarixində saat 12:00-da başlayacaq və 16 dekabr 2026-cı il tarixi saat 13:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilən "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə 5, Binəqədi Yaşayış Kompleksi üzrə 839, Şirvan Yaşayış Kompleksi üzrə 201, Yevlax Yaşayış Kompleksi üzrə 4 mənzil olmaqla, ümumilikdə 1 049 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin:

Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə - 02.11.2020-ci il tarixli 30383 nömrəli müsbət rəyi;

Binəqədi Yaşayış Kompleksi üzrə - 03.04.2023-cü il tarixli 34942, 27.04.2023-cü il tarixli 35053 və 35054, 20.06.2023-cü il tarixli 35357 və 35358 nömrəli müsbət rəyləri;

Şirvan Yaşayış Kompleksi üzrə - 03.07.2023-cü il tarixli 35409 və 14.09.2023-cü il tarixli 35911 nömrəli müsbət rəyləri;

Yevlax Yaşayış Kompleksi üzrə - 09.12.2023-cü il tarixli 36452 nömrəli müsbət rəyi mövcuddur.

Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsinin 1 saylı Bakı Ərazi İdarəsi, 13 saylı Şirvan Ərazi İdarəsi və 17 saylı Yevlax Ərazi İdarəsi tərəfindən mənzillərə mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.

Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:

Bina №	Binanın yerləşdiyi tikinti sahəsi (m²)	Binada mərtəbə sayı	Binaya giriş sayı	Mənzillərin otaqlarının sayı	Mənzillərin sayı	Mənzillərin daxili perimetr üzrə sahəsi (m²)	Mənzillərin xarici perimetr üzrə sahəsi (m²)	Baş podratçı / ünvanı	Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi
21	708.07	9	2	4	2	99	119.4	"Chinar İnshaat" MMC, AZ2300, Göyçay rayonu, Göyçay şəhəri, R.İsayev küçəsi, ev 91.	01.03.2023
22	704.35	9	2	4	3	99	119.4		

Binəqədi Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:

Bina №	Binanın yerləşdiyi tikinti sahəsi (m²)	Binada mərtəbə sayı	Binaya giriş sayı	Mənzillərin otaqlarının sayı	Mənzillərin sayı	Mənzillərin daxili perimetr üzrə sahəsi (m²)	Mənzillərin xarici perimetr üzrə sahəsi (m²)	Baş podratçı / ünvanı	Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi
1	835.95	9	2	3	16	74	88.5	"DDLAR İNŞAAT" QSC ("Araz İnşaatçı" MMC konsorsium), AZ1008, Bakı şəhəri, Nərimanov rayonu, Tələt Şıxəliyev küç., ev 20, qapı 1,2,3.	15.09.2026
				5	16	156.5	184.2		
2	530.87	12	1	3	48	75.2 – 76.7	88.9 – 91.2		
5	530.17	12	1	3	13	75.2 – 76.7	88.9 – 91.2	"Hovers Group" MMC, AZ1078, Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küç., ev 73.	23.11.2025
8	528.36	12	1	3	48	75.2 – 76.7	88.9 – 91.2	"Yar İnşaat Təmir-Tikinti" MMC ("Mərkuri İnşaat" MMC konsorsium), AZ1052, Bakı şəhəri, Nərimanov rayonu, Akademik Həsən Əliyev küç., ev 90, mənzil 29.	23.11.2025
9	708.2	9	2	3	4	72.9	85.2	"AZCD GROUP" QSC, AZ1110, Bakı şəhəri, Nərimanov rayonu, Akademik Həsən Əliyev küç., ev 79A.	28.06.2024
				4	4	99	119.5		
12	736.03	9	2	3	18	72.9	85.2	"AMAL GROUP" MMC, AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küç., ev 44, Caspian Plaza 2-ci korpus,15-ci mərtəbə.	30.06.2026
				4	18	99	119.5		
13	736.03	9	2	3	18	72.9	85.2		
				4	18	99	119.5		
14	506.72	12	1	3	46	73.4 – 76.7	87.7 – 91.2		
15	519.08	12	1	3	44	73.4 – 76.7	87.7 – 91.2		
16	486.89	12	1	3	46	73.4 – 76.7	87.7 – 91.2		
17	530.21	12	1	3	48	75.2 – 76.7	88.9 – 91.2		
18	757.62	9	2	3	18	72.9	85.2		
				4	18	99	119.5		
19	757.62	9	2	3	18	72.9	85.2		
				4	18	99	119.5		
20	528.81	12	1	3	48	75.2 – 76.7	88.9 – 91.2		
21	754.61	9	2	3	18	72.9	85.2		
				4	18	99	119.5		
22	518.67	12	1	3	48	75.2 – 76.7	88.9 – 91.2		
23	508.54	12	1	3	48	75.2 – 76.7	88.9 – 91.2	"Hünər-İnşaat" Firması, AZ1154, Bakı şəhəri, Nərimanov rayonu, İsmayıl Hidayətzadə küç., ev 7A, mənzil 136, məhəllə 1911.	31.03.2026
24	719.19	9	2	3	18	72.9	85.2		
				4	18	99	119.5		
25	717.4	9	2	3	18	72.9	85.2		
				4	9	99	119.5		
26	511.2	12	1	3	47	75.2 – 76.7	88.9 – 91.2		
27	715.07	9	2	3	18	72.9	85.2		
				4	18	99	119.5		
28	738.66	9	2	3	18	72.9	85.2		
				4	18	99	119.5		

Şirvan Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:

Bina №	Binanın yerləşdiyi tikinti sahəsi (m²)	Binada mərtəbə sayı	Binaya giriş sayı	Mənzillərin otaqlarının sayı	Mənzillərin sayı	Mənzillərin daxili perimetr üzrə sahəsi (m²)	Mənzillərin xarici perimetr üzrə sahəsi (m²)	Baş podratçı / ünvanı	Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi
5	728.14	9	2	3	1	72.8	88.1	"Hünər-İnşaat" Firması, AZ1154, Bakı şəhəri, Nərimanov rayonu, İsmayıl Hidayətzadə küç., ev 7A, mənzil 136, məhəllə 1911.	31.03.2026
				4	7	98.7	120.9		
6	714.46	9	2	2	1	57.7	71.2		
				3	1	72.8	88.1		
				4	4	98.7	120.9		
7	503.8	12	1	3	9	75.2 – 76.7	91.5 – 92.5		
8	703.84	9	2	2	2	57.7	71.2		
				3	7	72.8	88.1		
				4	13	98.7	120.9		
9	712.33	9	2	4	13	98.7	120.9		
11	714.17	9	2	3	1	72.8	88.1	"Araz İnşaatçı" MMC, AZ1072, Bakı şəhəri, Nərimanov rayonu, İ.Həsənoğlu küç., məhəllə 851, mənzil 10/86.	30.12.2025
				4	5	98.7	120.9		
12	702.82	9	2	3	1	72.8	88.1		
				4	1	98.7	120.9		
16	853.2	9	2	4	9	114.6	137.1	"Yar İnşaat Təmir-Tikinti" MMC ("DDLAR İnşaat" QSC konsorsium), AZ1052, Bakı şəhəri, Nərimanov rayonu, Akademik Həsən Əliyev küç., ev 90, mənzil 29.	30.06.2026
17	503.8	12	1	3	6	75.2	91.5		
18	729.65	9	2	4	14	98.7	120.9		
19	503.8	12	1	3	9	75.2 – 76.7	91.5 – 92.5		
20	503.8	12	1	3	13	75.2 – 76.7	91.5 – 92.5	"HN Construction" QSC, AZ1117, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14.	30.06.2026
21	711.61	9	2	3	5	72.8	88.1		
				4	12	98.7	120.9		
22	702.82	9	2	3	4	72.8	88.1		
				4	14	98.7	120.9		
23	503.8	12	1	3	11	75.2 – 76.7	91.5 – 92.5		
24	717.19	9	2	3	10	72.8	88.1		
				4	14	98.7	120.9		
25	706.24	9	2	3	1	72.8	88.1		
				4	13	98.7	120.9		

Yevlax Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:

Bina №	Binanın yerləşdiyi tikinti sahəsi (m²)	Binada mərtəbə sayı	Binaya giriş sayı	Mənzillərin otaqlarının sayı	Mənzillərin sayı	Mənzillərin daxili perimetr üzrə sahəsi (m²)	Mənzillərin xarici perimetr üzrə sahəsi (m²)	Baş podratçı / ünvanı	Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi
4	965.8	7	2	3	1	74.2	87.1	"Rabitə İnşaat" ASC, AZ1033, Bakı şəhəri, Nərimanov rayonu, Təbriz küç., ev 227C.	17.10.2025
5	965.8	7	2	1	1	45.5	54		
				3	1	98.1	111.8		
6	579.5	7	1	4	1	109.2	127.9		

Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi və Binəqədi Yaşayış Kompleksi üzrə yalnız **öz vəsaiti hesabına** ödəniş üsulu ilə, Şirvan Yaşayış Kompleksi və Yevlax Yaşayış Kompleksi üzrə isə həm **ipoteka kreditindən** istifadə etməklə, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

Qeyd: *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə:

4 otaqlı mənzillərin qiyməti – 118 800 manatdır.

Binəqədi Yaşayış Kompleksi üzrə:

3 otaqlı mənzillərin qiyməti – 98 415 manatdan başlayır,
4 otaqlı mənzillərin qiyməti –133 650 manat,
5 otaqlı mənzillərin qiyməti – 211 275 manatdır.

Şirvan Yaşayış Kompleksi üzrə:

2 otaqlı mənzillərin qiyməti – 54 815 manat,
3 otaqlı mənzillərin qiyməti – 69 160 manatdan başlayır,
4 otaqlı mənzillərin qiyməti – 93 765 manatdan başlayır.

Yevlax Yaşayış Kompleksi üzrə:

1 otaqlı mənzilin qiyməti – 43 225 manat,
3 otaqlı mənzillərin qiyməti – 70 490 manatdan başlayır,
4 otaqlı mənzilin qiyməti – 103 740 manatdır.

Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

Şirvan Yaşayış Kompleksi üzrə:

İllik faiz dərəcəsi	Müddət	Aylıq ödəniş*		
		2 otaqlı	*3 otaqlı*	*4 otaqlı*
4%	3-30 il	**236 manat**	**297 - 313 manat**	**403 - 468 manat**
* Aylıq ödəniş – mənzil minimal ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.				

Yevlax Yaşayış Kompleksi üzrə:

İllik faiz dərəcəsi	Müddət	Aylıq ödəniş*		
		1 otaqlı	*3 otaqlı*	*4 otaqlı*
4%	3-30 il	**186 manat**	**303 – 400 manat**	**446 manat**
* Aylıq ödəniş – mənzil minimal ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.				

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəsmi internet səhifəsinə (https://mida.gov.az/layiheler) daxil olaraq Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsində, Binəqədi, Şirvan və Yevlax Yaşayış Komplekslərində satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti və agent banklar haqqında məlumatla tanış olmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla www.mida.gov.az internet səhifəsində və ya Bakı şəhərində yerləşən 5 saylı "ASAN xidmət" mərkəzinə, habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

Qeyd: *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressİnformMMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN



İnsanlığın ən gözəl dili...



Bəzən bir insanın həyatında böyük dəyişiklik yaratmaq üçün nə sərvət, nə də qeyri-adi güc lazımdır. Vaxtında uzadılan yardım əli və ya heç bir təmənna güdmədən göstərilən diqqət kifayətdir. Çünki xeyirxahlıq böyük əməllərlə yanaşı, kiçik, lakin ürəkdən gələn davranışlarda da özünü göstərir. İnsan dünyaya nə qədər iz qoyursa qoysun, onun əsl böyüklüyü başqalarının həyatına bəxş etdiyi yaxşılıqla ölçülür.

Dünyada zamanla hər şeyin dəyəri dəyişir. Var-dövlət unudulur, pul dəyərini itirir, gözəllik solur. Amma bir şey var ki, zaman onun dəyərini azalda bilmir - xeyirxahlıq. Xeyirxahlıq insan qəlbinin ən saf, ən nəcib hissidir. O, bəzən bir dilim çörək, bəzən səmimi bir söz, bir baxış qədər sadə, amma dəyərli olur. Xeyirxahlıq edən insan təkcə başqasına deyil, əslində öz ruhuna nur qatır. Xeyirxahlıq nə böyük sərvət, nə də çoxlu söz tələb edir. Bu əməl, sadəcə, ürək istəyir.

Xeyirxahlıq dünyanı dəyişməyin ən sadə yoludur

Noyabrın 13-də Ümumdünya Xeyirxahlıq Günü kimi qeyd olunur. Ümumdünya Xeyirxahlıq Hərəkatının birinci konfransı 1988-ci ilin məhz bu günü Tokioda keçirilib. Konfransda Avstraliya, Kanada, Yaponiya, Tailand, Sinqapur, Böyük Britaniya və ABŞ-ın nümayəndələri iştirak ediblər. Sonralar başqa ölkələr də bu hərəkata qoşulublar.

"Ümumdünya Xeyirxahlıq Hərəkatı" təşkilatı 1997-ci ildə Yaponiyada yaradılıb. Müxtəlif ölkələrdən olan xeyirxahlıq hərəkatının həmfikirləri və könüllüləri " bir bayraq altında" toplanıblar. Bu təşkilat yorulmadan hərəkət edir və öz əməlləri ilə insanları xeyirxah işlər görməyə ruhlandırır. Bu gün xeyirxah, səmimi, nəcib bir iş görmək istəyən hər kəs onlara qoşula bilər. Üstəlik, Hərəkat iştirakçılarının əsas ünsiyyəti internet vasitəsilə baş verir. Burada onlar öz resurslarında xeyirxah işlərə dair ideyalar və onların həyata keçirilməsi yolları haqqında danışırlar.

Hərəkatın özünün "Xeyirxahlıq Bəyannaməsi" adlı rəsmi sənədi var. Orada deyilir: "Biz sadə insan mehribanlığını məmnun və mənalı həyatın əsas şərti kimi qəbul edirik və bu sənədlə Ümumdünya Xeyirxahlıq Hərəkatını yaratmağımızı elan edirik. Biz hər bir ölkədəki təşkilatlar vasitəsilə və dünya miqyasında şəbəkə yaratmaqla bir araya gəlməyə və daha mehriban, daha mərhəmətli bir dünya yaratmağa çalışacağıq".

Məhz bu təşkilatın üzvləri belə gözəl bayram yaratmağı təklif ediblər. Ümumdünya Xeyirxahlıq Günü rəsmi olaraq Sinqapurda 2000-ci il noyabrın 18-də Hərəkatın 3-cü Konfransında təsis edilib.

Qəlbləri bir araya gətirən gün

Xeyirxahlığın sağlamlığa təsiri

Araşdırmalara görə, hər gün xeyirxah işlərlə məşğul olan insanlar özlərini fiziki cəhətdən daha yaxşı hiss edirlər. Onlar həyatlarının daha ahəngdar olduğunu hiss edir, daha yaxşı immunitetə malikdirlər. Yəni daha az xəstələnirlər və daha uzun yaşayırlar. Bütün bunlar hətta praktiki araşdırmalarla da təsdiqlənib. İnsan başqa insanlara yaxşılıq edəndə onun limfositlərinin səviyyəsi yüksəlir və qan damarları genişlənir. Bu, ürəyin düzgün işləməsinə səbəb olur. Beyin sakitləşdirici təsir göstərən, stresin təsirlərini neytrallaşdıran və depresiyanı yüngülləşdirən çoxlu miqdarda endorfin ("zövq hormonları" kimi tanınır) istehsal edir.

Heç kimə sirr deyil ki, müasir dünyada texnologiyaların hər keçən gün daha da inkişaf etdiyi bir zamanda insani hisslər, mənəvi keyfiyyətlər getdikcə ikinci plana keçir. Odur ki, bugünkü bayram insanlara xeyirxahlığı xatırladır və müxtəlif ölkələrdə mövcud olan xeyirxahlıq hərəkatlarını birləşdirir.

Yaxşılığı sabaha saxlamaq olmaz

Xeyirxahlıq üçün təqvimdə xüsusi günün olması gözəldir. Ancaq yaxşılığı yalnız noyabrın 13-də xatırlamaq onun əsl mahiyyətini anlamaq demək deyil. Bu gün bir başlanğıc, özümüzə ünvanladığımız mənəvi suallar üçün bir fürsət olmalıdır: Bu gün kimin həyatını asanlaşdıra bilərəm? Kiminsə üzündə təbəssüm yaratmaq üçün nə edə bilərəm? Ətrafımdakı insanların hansı ehtiyacını görə və qarşılaya bilərəm? Bu sualların cavabı heç də həmişə böyük layihələrdə, geniş imkanlarda gizlənmir. Bəzən telefonla haləhval tutmaq, incitdiyimiz insandan üzr istəmək, kimisə təşəkkür etmək, könüllü fəaliyyətə qoşulmaq və ya ehtiyacı olan birinə vaxt ayırmaq kifayətdir.

Həyatın ən gözəl tərəflərindən biri də budur ki, insan yaxşılıq etmək üçün heç vaxt gecikmiş sayılmır. Hər gün yeni bir imkan, hər görüş yeni bir fürsət, hər münasibət isə mərhəməti nümayiş etdirmək üçün bir səbəbdir. Nəticə etibarilə, xeyirxahlıq insanın sahib ola biləcəyi ən qiymətli mənəvi sərvətlərdən, insanlığı ucaldan ən ali xarakter xüsusiyyətlərindən biridir. Vəzifələr dəyişir, sərvətlər tükənir, şöhrət zamanla unudula bilir. Ancaq bir insanın başqa bir insanın qəlbində yaratdığı xoş duyğu, etdiyi yaxşılığın xatirəsi uzun illər yaşayır. Çünki insanı həqiqətən böyük edən nə qədər çox şeyə sahib olması deyil, sahib olduqlarından nə qədərini başqaları ilə bölüşə bilməsidir.

Dünya bəlkə də bir gündə dəyişməyəcək. Amma hər kəs özündən başlasa, hər gün bir az daha mərhəmətli, bir az daha anlayışlı və bir az daha xeyirxah olsa, daha gözəl dünyanın qurulması əlçatmaz arzu olaraq qalmaz. Axı insanlığın ən uca zirvəsinə aparan yol xeyirxahlıqdan keçir...

Yeganə BAYRAMOVA

Hər kəs üçün bərabər imkanlar

Görmə məhdudiyyətli insanların dünyası

Hər gün dünyanı gözlərimizlə kəşf edir, rənglərin ahəngindən, günəşin doğuşundan və digər gözəlliklərdən zövq alırıq. Bəzən isə sahib olduğumuz bu imkanların nə qədər qiymətli olduğunu yalnız onları itirmək təhlükəsi ilə üzləşəndə anlayırıq. Halbuki dünya yalnız gözlərlə görülmür. Onu duymaq, hiss etmək, səslərdən, toxunuşlardan, düşüncələrdən və təxəyyüldən də kəşf etmək mümkündür. Beynəlxalq Gözdən Əlillər Günü də məhz bu həqiqəti xatırlatmaq, cəmiyyətin diqqətini görmə məhdudiyyətli insanların həyatına, hüquqlarına və imkanlarına yönəltmək baxımından xüsusi əhəmiyyət daşıyır.

Hər il noyabrın 13-də qeyd olunan bu əlamətdar gün görmə məhdudiyyətli insanların qarşılaşdıqları çətinlikləri gündəmə gətirməklə yanaşı, onların cəmiyyətin bərabərhüquqlu üzvləri kimi yaşamaq, təhsil almaq, işləmək və ictimai həyatda fəal iştirak etmək hüququnu da ön plana çıxarır. Bu tarix həm də insanları fərqliliklərə daha həssas yanaşmağa, empatiya göstərməyə və əlçatan mühitin yaradılmasına töhfə verməyə çağırır.



Bir günün arxasında dayanan böyük məna

Beynəlxalq Gözdən Əlillər Gününün tarixi fransız maarifçisi Valentin Hauyinin adı ilə bağlıdır. O, görmə məhdudiyyətli insanların təhsilə çıxışını təmin etmək istiqamətində mühüm təşəbbüslər göstərib. Bu günün noyabrın 13-də qeyd edilməsi də məhz onun doğum günü ilə əlaqədardır. Tarixin əsas mesajı yalnız görmə qabiliyyətini itirmiş insanları xatırlamaq deyil. Əsas məqsəd onların cəmiyyətdə üzləşdikləri görünməz maneələri görünən etməkdir.

İmkanların sərhədi yoxdur...

Görmə məhdudiyyətli insanların cəmiyyətə verdiyi töhfələr müxtəlif sahələrdə özünü göstərir. Xüsusilə, idman bu insanların fiziki hazırlığını, komanda ruhunu və rəqabət qabiliyyətini nümayiş etdirdikləri mühüm platformadır.

Musiqi və incəsənət sahəsində də görmə məhdudiyyətli insanların uğurları diqqətəlayiqdir. Onlar öz yaradıcılıqları ilə sübut edirlər ki, sənətin dili rənglərdən və görüntülərdən daha genişdir. Musiqinin ritmi, səsin ahəngi, sözün gücü və təxəyyül insanın özünü ifadə etməsi üçün saysız-hesabsız imkanlar yaradır.

Ağ çubuq: müstəqilliyin və azad hərəkətin rəmzi

Görmə məhdudiyyətli insanlarla bağlı ən tanınan simvollardan biri ağ çubuqdur. İlk baxışdan sadə bir köməkçi vasitə təsiri bağışlasa da, onun funksiyası olduqca böyükdür. Ağ çubuq insana yolun quruluşunu, qarşısındakı maneələri və ətraf mühitdəki dəyişiklikləri müəyyənləşdirməyə kömək edir. Lakin ağ çubuğun mövcudluğu təkbaşına təhlükəsiz hərəkət üçün kifayət etmir. Səkilərdəki maneələr, düzgün yerləşdirilməyən avtomobillər, pandus və istiqamətləndirici zolaqların çatışmazlığı, səsli svetoforların olması gündəlik həyatı çətinləşdirə bilər. Deməli, əlçatan şəhər mühiti yalnız müəyyən insanların deyil, bütövlükdə cəmiyyətin məsuliyyətidir.

Barmaqların oxuduğu dünya

Görmə məhdudiyyətli insanların təhsil və informasiya əldə etmək imkanlarından danışarkən Brayl əlifbasını xüsusi qeyd etmək lazımdır. XIX əsrdə fransız pedaqoqu Lui Brayl tərəfindən yaradılan bu yazı sistemi altı nöqtənin müxtəlif kombinasiyalarına əsaslanır. Həmin nöqtələr barmaqlar vasitəsilə hiss edilir və hərf, rəqəm, eləcə də digər işarələri ifadə edir. Bu əlifba görmə məhdudiyyətli insanlar üçün sadəcə oxu-yazı vasitəsi deyil. O, müstəqil öyrənməyin, məlumat əldə etməyin və intellektual inkişafın mühüm açarlarından biridir.

Bu gün texnologiyanın inkişafı ilə yanaşı, elektron Brayl displeyləri, səsli kitablar və ekran oxuyucu proqramlar da informasiya əlçatanlığını genişləndirir. Bununla belə, ənənəvi Brayl yazısının əhəmiyyəti azalmır. Çünki savadlılıq yalnız informasiyanı dinləmək deyil, həm də yazının quruluşunu, orfoqrafiyanı və mətnin vizual formasını öyrənmək imkanıdır.

Beynəlxalq Gözdən Əlillər Günü bizə bir daha xatırladır ki, insanları fərqləndirən onların fiziki xüsusiyyətləri deyil, həyata baxışları, düşüncələri, arzuları və cəmiyyətə verdikləri töhfələrdir. Bəzən bir pandusun düzgün qurulması, bir kitabın səsli formatda hazırlanması, bir internet səhifəsinin əlçatan olması və ya küçədə göstərilən düzgün istiqamət insanın həyatında böyük dəyişiklik yarada bilər. Bu kiçik görünən addımlar əslində daha böyük bir məqsədə - heç kimin imkanlarından kənarda qalmadığı cəmiyyətin qurulmasına xidmət edir.

Gözlər dünyanı görməyin vasitələrindən biridir, lakin insanı anlamaq üçün təkcə baxmaq kifayət etmir. Bunun üçün diqqət, anlayış və hörmət lazımdır. Beynəlxalq Gözdən Əlillər Gününün ən mühüm çağırışı da məhz budur: görmə məhdudiyyətli insanlara fərqli gözlə baxmaq deyil, onların da hamı ilə eyni hüquqlara, arzulara və imkanlara sahib olduğunu qəbul etmək. Çünki həqiqi maneə bəzən gözlərdə deyil, cəmiyyətin düşüncəsindədir. Bu maneəni aradan qaldırmaq isə hər birimizin əlindədir.

Yeganə BAYRAMOVA

Rəqəmsal dünya hər kəs üçün əlçatan olmalıdır

Müasir dövrdə texnologiya görmə məhdudiyyətli insanların həyatında əsl dönüş yaradıb. Bir vaxtlar əlçatmaz görünən bir çox imkan indi gündəlik həyatın bir hissəsinə çevrilib.

Ekran oxuyucu proqramlar kompüter və smartfonlardakı mətnləri səsləndirir, səsli köməkçilər müxtəlif əməliyyatları yerinə yetirməyə imkan verir. Xüsusi tətbiqlər isə ətrafdakı obyektləri, yazıları və bəzi hallarda məkan məlumatlarını müəyyənləşdirməyə kömək edir. Süni intellekt əsaslı texnologiyalar da bu sahədə yeni üfüqlər açır. Kameraya çəkilmiş görüntülərin təsviri, sənədlərin oxunması və ətraf mühit haqqında məlumatların səsləndirilməsi görmə məhdudiyyətli insanların müstəqilliyini artıran yeniliklər sırasındadır.

Ancaq texnologiyanın mövcudluğu hələ onun hamı üçün əlçatan olması demək deyil. Dövlət xidmətlərinin, bank tətbiqlərinin, internet səhifələrinin və elektron təhsil platformalarının ekran oxuyucu proqramlarla uyğun işləməsi vacibdir. Rəqəmsal dünya da fiziki məkan qədər əlçatan olmalıdır.

Əsl görmə gözlərdən deyil, münasibətdən başlayır

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4312
Sifariş: 1504
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova